RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 69 (8385) ÇƏRŞƏNBƏ AXŞAMI, 14 aprel 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyevdən növbəti qlobal təşəbbüs

## Azərbaycan Prezidenti Türk Şurasının fövqəladə Zirvə görüşündə dünyanı pandemiyaya qarşı mübarizədə həmrəyliyə, birgə əməkdaşlığa çağırdı

Dünyanın koronavirus təhlükəsi ilə üzləşdiyi vaxtda türkdilli dövlətlərin daha sıx həmrəylik nümayiş etdirmələri bir çox ölkələrə, təşkilatlara nümunədir.

Qətiyyətli qərarları, qlobal təşəbbüsləri ilə hər zaman örnək olan Prezident İlham Əliyev bu dəfə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəaliyyəti tarixində, həm də beynəlxalq təşkilatların tarixində yenilik olaraq videokonfrans vasitəsi ilə fövqəladə Zirvə toplantısı keçirməklə daha bir ilkə imza atdı. Bu, həmrəylik, birlik üçün dünya dövlətlərinin rəhbərlərinə bir mesaj idi.

### Azərbaycan etibarlı tərəfdaş olduğunu bir daha təsdiqlədi

Türk Şurası dövlət başçıları səviyyəsində qlobal pandemiyaya həsr olunmuş toplantı keçirən ilk beynəlxalq təşkilat oldu. Zirvə görüşünün əsas məqsədi milli səviyyədə atılan addımlara dair təcrübə mübadiləsinin aparılması, lazım olan anda bir-birinə dəstək göstərilməsi və xalqlar arasında həmrəyliyin möhkəmləndirilməsi idi.

Ümumiyyətlə, koronavirus pandemiyasının geniş yayıldığı çətin bir dövrdə prezidentləri bir araya gətirmək və Zirvə görüşünün Bəyannaməsini qəbul edərək dünya dövlətlərini, beynəlxalq təşkilatları infeksiyaya, çətinliklərə, fəlakətlərə qarşı birgə mübarizəyə səsləmək cənab İlham Əliyevin xalqların birliyinə, həmrəyliyinə olan inamının ifadəsidir.

Türk Şurasının sədri kimi cənab İlham Əliyevin təşəbbüsü ilə keçirilən COVID-19 pandemiyasına həsr olunmuş fövqəladə Zirvə görüşü indiki çətin şəraitdə milli səviyyədə təcrübəni bölüşmək, ölkələr tərəfindən bir-birinə dəstək göstərmək baxımından çox mühüm əhəmiyyət daşıyır. Koronavirusla mübarizədə beynəlxalq əməkdaşlığa və dialoqa daha çox ehtiyac duyulduğu bir dövrdə Azərbaycan etibarlı tərəfdaş olduğunu bir daha təsdiqlədi.

Prezident bildirdi ki, koronavirus pandemiyası qlobal təhlükə olduğu üçün qlobal cavab tələb edir: "Pandemiyanın ilk günlərindən etibarən bəzi ölkələr və beynəlxalq təşkilatların koronavirus qarşısında çaşqın qalmasının, özünə qapanma yolunu seçməsinin şahidi oluruq. Pandemiyanın dünyanı bürüdüyü indiki şəraitdə dünyanın həmrəyliyə və əməkdaşlığa ehtiyacı vardır".

Ümumiyyətlə, Türk Şurasına sədrliyi dövründə Azərbaycan üzv dövlətlər arasında əməkdaşlığın və həmrəyliyin daha da genişlənməsinə daim öz töhfəsini verib. Ölkəmiz eyni zamanda təşkilatın beynəlxalq nüfuzunun artması yönündə mühüm addımlar atıb.

### Koronavirusla mübarizədə Azərbaycan nümunəsi

Videokonfrans zamanı Türk Şurasına üzv dövlətlərin rəhbərləri çətin dövrdə Azərbaycan Prezidentinin atdığı qətiyyətli addımları alqışladıqlarını, pandemiya ilə mübarizədə dövlətimizin qabaqlayıcı tədbirlər həyata keçirərək çoxlarına nümunə olduğunu diqqətə çatdırdılar.

Digər əlamətdar məsələ isə Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru doktor Tedros Adhanom Gebreyesusun bu Zirvə görüşünə qatılması idi. Bu da Azərbaycanın dəvəti ilə baş tutmuşdu və Türk Şurasının toplantısına həm də digər bir beynəlxalq təşkilatla birgə fəaliyyət, əməkdaşlıq keyfiyyəti qazandırır. ÜST-ün baş direktoru ölkəmizlə əməkdaşlıqdan məmnuniyyətini dilə gətirərək Azərbaycanda həyata keçirilən tədbirləri yüksək qiymətləndirdiyini bildirdi və bundan sonrakı mərhələdə koronavirusa qarşı mübarizədə daha yeni vasitələrlə birgə mübarizənin əhəmiyyətindən danışdı.

Ardı 3-cü səh.

# Xeyirxahlıq nümunəsi

Bu gün koronavirus (COVID-19) pandemiyası bəşəriyyətin gündəmini zəbt edib. Çünki yeni virus can almaqda davam edir. Azərbaycanda da dövlətin və cəmiyyətin diqqəti koronavirusa qarşı mübarizə tədbirlərinə yönəlib.

Ancaq bu gərgin günlərdə unudulması yolverilməz olan məqamlardan biri də odur ki, bir sıra ağır xəstəliklərdən əziyyət çəkən insanlar da vardır. Onlar hər zamankı kimi tibbi müdaxilələrlə, müalicələrlə yanaşı, cəmiyyətin qayğısına da möhtacdırlar. Digər tərəfdən koronavirus pandemiyasının dünyada sürətlə yayıldığı bir vaxtda mütəxəssislər xəbərdarlıq edirlər ki, immuniteti zəif və qanı normadan aşağı olan insanların bu infeksiyaya yoluxma ehtimalı daha yüksəkdir.

Qeyd edək ki, ölkəmizdə koronavirusla əlaqədar xüsusi karantin rejiminin tətbiq olunduğu müddətdə talassemiya və hemofiliya, həmçinin leykoz xəstəliyindən əziyyət çəkən uşaqlar üçün qan ehtiyatı azaldığından Heydər Əliyev Fondu və Heydər Əliyev Mərkəzinin əməkdaşları aprelin 11-də keçirilən qanvermə aksiyasında iştirak ediblər.



Qanvermə aksiyasının keçirilməsində məqsəd qan xəstəliklərindən əziyyət çəkən uşaqlara yardım göstərmək və cəmiyyətin diqqətini bu sosial məsələyə cəlb etməkdir.

Birinci vitse-prezident Mehriban Əliyeva "Facebook" səhifəsində bununla bağlı etdiyi paylaşımda bildirib: "Şəfqət, mərhəmət, humanizm, səxavət, xoş əməllər etmək, köməyə ehtiyacı olanın yanında olmaq kimi keyfiyyətlər həmişə bizim ən mühüm həyati dəyərlərimiz olmuşdur və bu gün də belədir.

Ardı 2-ci səh.

## Oğuz rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Oğuz rayonunun əhalisi 12736 nəfər olan 9 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 10 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə Azərbaycanın rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədilə subartezian quyularının qazılması üçün göstərilmiş vəsaitin 700,0 (yeddi yüz) min manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 aprel 2020-ci il*



# Uğurlu siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır

## Prezident İlham Əliyevə təşəkkür məktubları gəlməkdə davam edir

Prezident İlham Əliyev bütün ekstremal hadisələr zamanı verdiyi qərarlarla ilk növbədə ölkə vətəndaşlarının yanında olduğunu daim təsdiq edib. Ayrı-ayrı bölgələrdə baş verən zəlzələlər, sel daşqınları zamanı xalqımız bunun şahidi olub.

Eyni vəziyyəti koronavirus infeksiyasının yayıldığı bu günlərdə də müşahidə etməkdəyik. Virusun Azərbaycanda qeydə alındığı gündən dövlət başçısının atdığı addımlar ilk növbədə vətəndaşların sağlamlığının və təhlükəsizliyinin qorunmasına yönəlib. Buna görə də günlərdir ki, Prezidentin ünvanına Azərbaycanın hər yerindən təşəkkür məktubları gəlməkdədir.

Ardı 2-ci səh.

# Şəfqət, mərhəmət, səxavət həmişə əvəzsiz dəyərlərimiz olub

## COVID-19-la mübarizədə də bu keyfiyyətlər yaxın köməkçimizdir

Dünyada tüğyan edən COVID-19 Azərbaycandan da yan keçmədi. Bu amansız bəla ilə üzləşdiyi çətin zamanda xalqımızın dayağı dövlətimiz və milli-mənəvi dəyərlərimizdir. Dövlət insanların yanında, insanlar da dövlətlə birlikdədir. Hər tərəfdə qarşılıqlı anlaşma, qayğı, diqqət nümayiş etdirilir. Hamı bir-birinə kömək göstərir.

Bu günlərdə xalqımızın milli-mənəvi dəyərləri özünü daha bariz şəkildə göstərir. Böyüyə hörmətin, kiçiyə qayğının, bir sözlə, insanların bir-birinə hər an kömək göstərməyə hazır olduqlarının hər addımbaşı şahidi oluruq.

Birinci olaraq Prezident İlham Əliyev xalqa müraciət etdi. Azərbaycan xalqına Novruz bayramı münasibəti ilə təbrikində dövlət başçısı dedi: "Bu il koronavirusa görə kütləvi tədbirlərin keçirilməsi mümkün deyil. Əminəm ki, Azərbaycan xalqı bu vəziyyəti yaxşı anlayır. Azərbaycan dövləti tərəfindən görülən bütün tədbirlər xalqın sağlamlığını, ölkəmizin təhlükəsizliyini təmin etmək üçündür. Ona görə xahiş edirəm ki, hər bir vətəndaş öz məsuliyyətini dərk etsin və yaşlı nəslin nümayəndələrinə xüsusi diqqət göstərilməlidir. Yaşlı nəslin nümayəndələrinə Azərbaycan cəmiyyətində həmişə böyük hörmət göstərilir. Mən bu mövzu ilə bağlı fikirlərimi kifayət qədər geniş şəkildə bildirmişdim və bir daha demək istəyirəm ki, bu, bizim cəmiyyətimizin əsas sütunlarından biridir. Bizim ənənələrimiz, milli dəyərlərimiz, yaşlı nəslin nümayəndələrinə hörmət və diqqət milli xüsusiyyətimizdir və biz bu dəyərləri bundan sonra da qorumalıyıq. Ancaq indiki şəraitdə yaşlı nəslin nümayəndələrinə xüsusi diqqət göstərilməlidir. Onlara hörmət dildə, sözdə yox, əməldə göstərilməlidir. Çünki bu xəstəliklə bağlı ən ağır fəsadlar məhz yaşlı nəslin nümayəndələrində müşahidə olunur. Əminəm ki, biz dünyanı bürümüş, pandemiya halına çevrilmiş bu xəstəliyə qarşı birlikdə mübarizə aparacağıq və bu mübarizə öz nəticəsini verəcəkdir".

Ardı 5-ci səh.

• *Özünü, doğmalarını və dostlarını qorumaq:*
• *Koronavirusa qalib gəlmək üçün*

**EVDƏ QAL!**

*Biz birlikdə güclüyük!*

**Biz birlikdə güclüyük!**

# Uğurlu siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır



## Prezident İlham Əliyevə təşəkkür məktubları gəlməkdə davam edir

*Əvvəli 1-ci səh.*

### Sizin rəhbərliyinizlə ölkəmizin inkişafı yeni müstəviyə çıxacaq

Göygöl rayonunun Üçtəpə kəndindən Əkbər Sadıqov və Mətanət Qarayeva yazırlar: "Dünyanın başı üzərini alan qara bulud - koronavirus pandemiyası Azərbaycana da təsirini göstərib. Belə bir zamanda Sizin ölkə əhalisinin sağlamlığının keşiyində durmağınız, bunu özünüz üçün ən ümdə vəzifə hesab etməyiniz vətəndaşlara böyük ümid və inam verir. Sizin təşəbbüsünüzlə ölkəmizdə COVID-19-a qarşı görülən bütün tədbirlər xalqın sağlamlığını, ölkəmizin təhlükəsizliyini təmin etmək məqsədi daşıyır.

Cənab Prezident, inanırıq ki, tezliklə Azərbaycan bu bəladan qurtulacaq. Sizin rəhbərliyinizlə islahatlar davam etdiriləcək və ölkəmizin inkişafı yeni müstəviyə çıxacaqdır. Biz gənclər Sizin yürütdüyünüz siyasəti hər zaman dəstəkləyir, gələcək işlərinizdə Sizə uğurlar arzulayırıq."

İmişli sakini Nahid Mamedov yazır ki, dünyanı çənginə almış koronavirus pandemiyası Azərbaycandan da yan keçməyib. "Sizin müdrik və uzaqgörən siyasətiniz nəticəsində ölkəmizdə pandemiyanın təsirinin azaldılması və miqyasının məhdudlaşdırılması istiqamətində mühüm addımlar atılıb. Biz hər zaman Sizi dəstəkləyirik. İnanırıq ki, görülən tədbirlər nəticəsində ölkəmiz bu bəladan da tezliklə xilas olacaq. Cənab Prezident, ölkəmizdə görülən bütün işlərə görə Sizə təşəkkür edir, minnətdarlığımızı bildiririk", - deyə o yazır.

"Hazırda bütün dünya koronavirus pandemiyası ilə mübarizə aparır. İnfeksiyanın Azərbaycanda geniş yayılmasının qarşısının alınması istiqamətində Sizin rəhbərliyinizlə qabaqlayıcı tədbirlər davam etdirilir". Bunu isə Naftalan şəhərindən Əvəz Nəbizadə yazır. O, bu istiqamətdə ölkəmizdə atılan qətiyyətli addımlara, xalqımızın sağlamlığına göstərilən diqqət və qayğıya görə Qarabağ müharibəsi veteranları adından dövlət başçısına təşəkkürünü bildirir.

### Hər bir azərbaycanlının prezidenti

"Dünyanı ağuşuna almış koronavirus pandemiyası ilə mübarizə məqsədilə tapşırığınızla ölkəmizdə aparılan profilaktik tədbirlər, xüsusi karantin rejiminin tətbiqi, qabaqlayıcı tədbirlərin görülməsi, ən başlıcası isə sahibkarlara, sosial qayğıya ehtiyacı olanlara, işsizlərə maddi köməyin göstərilməsi Sizin hər bir azərbaycanlının prezidenti olduğunuzu bir daha sübut etdi." Bu fikirlər isə Yevlax rayon sakini Vaqif Əliyevin məktubunda yer alıb. "Prezident seçildiyiniz ildən başlayaraq həyatımızın bütün sahələrinə, xüsusilə səhiyyə sahəsinin əsaslı şəkildə yenidən qurulmasına yetirdiyiniz diqqət və qayğı bu xəstəliklə mübarizədə də öz təsdiqini tapmaqdadır. Koronavirusla mübarizə istiqamətində həyata keçirilən tədbirlərin mütəşəkkil və operativ həlli məqsədi ilə İcbari Tibbi Sığorta Agentliyinə ayırdığınız 97 milyon manat vəsait tezliklə bu xəstəliyə qalib gəlmək üçün tibb işçilərinin imkanlarının daha da genişləndirilməsinə, xəstələrin həyatlarını xilas etməyə yönəlib", - deyən V. Əliyev xalqımıza göstərdiyi bu diqqət və qayğıya görə Prezident İlham Əliyevə sonsuz minnətdarlığını bildirir. Onun sözlərinə görə, Yevlax sakinləri də əmindirlər ki, İlham Əliyevin müdrik və uzaqgörən siyasəti sayəsində koronavirus kimi dəhşətli bir xəstəliyə birlikdə qalib gələcəyik və Azərbaycanın davamlı inkişafı yenidən bərqərar olacaq.

Dünyanı çənginə alan pandemiya ilə mübarizədə tibbin ən inkişaf etdiyi ölkələrin belə aciz qaldığını qeyd edən Gəncə sakini Günay İsmayılova bəzi ölkələrdə vəziyyətə biganə yanaşıldığı halda, Prezident İlham Əliyevin uzaqgörən siyasəti və göstərişləri nəticəsində Azərbaycanda pandemiyanın təsirinin azaldılması və miqyasının məhdudlaşdırılması istiqamətində mühüm addımların atıldığını, dövlətimizin bütün imkanlarını virusun yayılmasının qarşısının alınmasına və onun fəsadlarının aradan qaldırılmasına yönəltdiyini yazır: "Bütün bunlar sübut edir ki, apardığınız uğurlu siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun rifahı dayanır. Cənab Prezident, bir vətəndaş kimi xalqa göstərdiyiniz yüksək qayğınıza görə Sizə minnətdaram. İnanıram ki, xalqımız, eləcə də bütün bəşəriyyət bu bəladan tezliklə xilas olacaq. Bu çətin günlərdə Siz xalqımıza dayaqsınız, xalqımız isə daim Sizinlədir. Sizinlə qürur duyuruq."

### "Əziz Prezidentim, biz Sizə güvənirik"

"Dünyada yayılan koronavirus xəstəliyinə görə hamı kimi mən də narahatam. Daha çox məlumat almaq üçün tez-tez televizora baxıram. Dünyada bu xəstəlikdən çox sayda insanın öldüyü, böyük çətinliklərin yarandığı bir vaxtda Siz ölkəmizdə misilsiz qabaqlayıcı tədbirlər görürsünüz. Xəstəliyin respublikamızda yayılmasının qarşısının alınması ilə bərabər, bu çətin günlərdə aztəminatlı ailələrə də böyük yardım göstərirsiniz". Bu fikirlər İmişli rayonunun Çaxırlı kəndinin sakini Zeyqəm Quliyevanın məktubundandır. "Əziz Prezidentim, biz Sizə güvənirik, Sizinlə qürur duyuruq. İnanırıq ki, ölkəmiz Sizin sayənizdə bu sınaqdan da üzüağ çıxacaqdır. Bir şəhid anası olaraq Sizə minnətdarlığımı bildirirəm. Allah Sizi qorusun", - deyə o yazır.

Şəki şəhərindən Tofiq Məmmədkərimov da ölkə başçısına minnətdarlığını ifadə edib. Onun məktubunda deyilir: "Koronavirusla mübarizəyə verdiyiniz dəstəyə görə Sizə dərin təşəkkürümü bildirirəm. Siz bu çətin zamanlarda yenə də xalqımızın yanındasınız. Vətəndaşlarımıza göstərdiyiniz bu diqqət və qayğınıza görə Şəki əhalisi adından Sizə minnətdaram. Biz də gənclər olaraq Sizin çağırışınıza qoşulur, yaşıl, ahıl və tənha insanlara dəstək göstəririk. Mən bir Şəki gənci kimi bu sahədə fəal çalışır və xalqımıza göstərdiyiniz qayğıya görə Sizə bir daha təşəkkürümü bildirirəm. Təşəkkürlər, bütün dünya azərbaycanlılarının lideri cənab İlham Əliyevə!"

### Dəyərli tövsiyə və təşəbbüslərinizi dəstəkləyirik

Zəngilan rayonundan məcburi köçkün, Qarabağ müharibəsi veteranı Kazım Mahmudov Prezident İlham Əliyevin ölkəmizdə koronavirusa qarşı mübarizə sahəsində imzaladığı sərəncamları, sosial həmrəylik nümayiş etdirilməsi barədə dəyərli tövsiyələrini və təşəbbüslərini dəstəklədiklərini bildirərək belə yazır: "Rəhbərliyinizlə vaxtında görülmüş operativ və təxirəsalınmaz tədbirlər sayəsində hazırda respublikamızda koronavirus pandemiyasına qarşı səmərəli mübarizə aparılır. Dövlətimiz bu gün də əhalinin sağlamlığını qorumaq, koronavirusun yayılmasının qarşısını almaq üçün səylərini davam etdirir. Cənab Ali Baş Komandan, Vətənimiz və xalqımız üçün gördüyünüz bütün işlərə, yorulmaz fəaliyyətinizə görə ailəm adından, Qarabağ müharibəsi veteranları və onların yaxınları adından Sizə və Birinci vitse-prezident Mehriban Əliyevaya dərin minnətdarlığımızı bildiririk. Əminik ki, koronavirusla mübarizə çərçivəsində atdığınız qətiyyətli və humanist addımlar xəstəliyin qarşısının alınmasına dəyərli töhfə verəcəkdir. Azərbaycan xalqı Sizə hər zaman güvənir".

Masallının Səmidxan kəndindən Azər Mirzəyev də ölkə Prezidentinə təşəkkür məktubu ünvanlayıb. O yazır: "Koronavirus pandemiyasının ölkəmizdə geniş yayılmasının qarşısını almaq məqsədilə atılmış operativ addımlar bizi sevindirir. Xüsusilə ölkəmizdə tibbi maska çatışmazlığının vaxtında aradan qaldırılmasına görə Masallı rayonu, M.İbayev adına Səmidxan kənd tam orta məktəbinin kollektivi adından Sizə minnətdarlığımı və təşəkkürümü bildirirəm."

### Bu günlərdə lider-xalq birliyi özünü daha qabarıq göstərəcək

Gəncədən Ruhəngiz Əliyeva da dövlət başçısına təşəkkürünü bildirib. Dünyanı çənginə alan koronavirus pandemiyasının Azərbaycandan da yan keçmədiyini bildirən Gəncə sakini yazır: "Sizin müdrik və uzaqgörən siyasətiniz nəticəsində ölkəmizdə pandemiyanın təsirinin azaldılması və miqyasının məhdudlaşdırılması istiqamətində mühüm addımlar atılıb. Dövlətimiz bütün qüvvəsini virusun qarşısının alınmasına və onun fəsadlarının aradan qaldırılmasına yönəldib. Bütün bunlar sübut edir ki, yürütdüyünüz siyasətin təməlində Azərbaycan vətəndaşı və onun rifahı dayanır. Biz əminik ki, bu günlərdə lider-xalq birliyi özünü daha qabarıq şəkildə göstərəcəkdir. Lider ən kritik məqamlarda öz vətəndaşının, vətəndaş isə dövlətinin rəhbərinin yanındadır.

Cənab Prezident, görülən tədbirlərə, xalqımızın qayğısına qaldığınıza görə Sizə təşəkkür edir, dərin minnətdarlığımı bildirirəm. Biz Sizinlə fəxr edirik".

"Bütün dünyanı çənginə alan koronavirus pandemiyası Azərbaycandan da yan keçməyib. Dünya ölkələri bu epidemiyaya qarşı müxtəlif yollarla mübarizə aparmaqdadır. Sizin rəhbərliyinizlə respublikamızda pandemiyanın qarşısının alınması, onun təsirinin azaldılması istiqamətində ardıcıl və sistemli tədbirlər həyata keçirilir. Məhz Sizin tapşırığınızla dövlətin bütün imkanları epidemiyanın qarşısının alınmasına, onun fəsadlarının aradan qaldırılmasına yönəldilib". Bu barədə məktubunda yazan Füzuli rayonunun Üçüncü Zobucuq qəsəbəsinin sakini Qiyas Niftəliyev daha sonra bildirir ki, füzulililər Sizin müdrik və uzaqgörən siyasətiniz nəticəsində ölkəmizin bu bəladan minimum itki ilə xilas olacağına əmindirlər. "Çünki Siz ən çətin məqamlarda hər zaman hər bir vətəndaşın yanında olduğunuzu atdığınız addımlarla, verdiyiniz qərarlarla sübut edirsiniz. Sizin və Birinci vitse-prezident Mehriban Əliyevanın yorulmaz fəaliyyətiniz vətəndaşlarımızın sağlam qalmalarına, xoşbəxt yaşamalarına xidmət edir. Cəbhə bölgəsində, düşmənlə bir neçə addımlıqda yaşayan füzulili məcburi köçkünlər hər zaman olduğu kimi, indi də Sizin yanınızdadırlar və Sizi dəstəkləyirlər. Allah Sizi və ailənizi qorusun", - deyə o yazır.

### "Biz birlikdə güclüyük!" çağırışınızla virusa qalib gələcəyik

Göyçay rayonunun ağsaqqalları Səməd Süleymanov, Xəlil Orucov, Nizami Məhərrəmov, Rauf Zeynalov və Əli Zöhrabov da Prezident İlham Əliyevə təşəkkür edərək ən xoş arzularını çatdırıblar. Onların məktubunda deyilir: "Ölkəmizdə koronavirus infeksiyasının yayılmasının qarşısının alınması istiqamətində apardığınız işlər bir daha sübut etdi ki, insanların sağlamlığı, təhlükəsizliyi, rahatlığı və rifahı Sizin üçün hər şeydən önəmlidir. Biz - yaşı 65-dən yuxarı olan vətəndaşlar bir daha əmin olduq ki, ölkəmizdə milli-mənəvi dəyərlər, adət-ənənələr lazımınca qorunur, böyüyə, ağsaqqala hörmət gündən-günə daha da artır. Sizin biz yaşlılara diqqətlə yanaşmağınızın nəticəsidir ki, ölkədə elan olunmuş xüsusi karantin rejimi ilə əlaqədar olaraq gənc nəslin nümayəndələri gündəlik qayğılarımızla maraqlanır, zəruri ərzaqla bağlı tələbatımızın ödənilməsinə kömək göstərirlər.

Əminik ki, Sizin uzaqgörən siyasətiniz nəticəsində "Biz birlikdə güclüyük!" çağırışınızla bu virusa qalib gələcək, bu bəladan az itki ilə qurtulacağıq. Biz Sizə güvənir, şərəfli və məsuliyyətli işinizdə uğurlar diləyirik."

### "Dualarımız hər zaman Sizinlədir"

"Dünyanı çənginə alan koronavirus pandemiyasının Azərbaycanda geniş yayılmasının qarşısının alınması məqsədilə Sizin təşəbbüsünüzlə qabaqlayıcı tədbirlərin görülməsi idarəetmə sistemində uğurlu siyasətinizin bariz nümunəsidir." Bunu isə Bakının Xəzər rayonundan Rəhman Cəbiyev yazır və əlavə edir: "Azərbaycanın hər bir vətəndaşının sağlamlığının və təhlükəsizliyinin qorunması istiqamətində həyata keçirilən tədbirlər, xüsusi karantin rejimi müddətində sahibkarlara, aztəminatlı ailələrə və işsizlərə yardım edilməsi Sizin xalqımıza diqqət və qayğınızın bariz göstəricisidir. İnanırıq ki, tək olan Allahın köməyi ilə və Sizin uğurlu siyasətiniz sayəsində ölkəmizdə əldə olunan ümumxalq birliyi nəticəsində xalqımız bu pandemiya bəlasından tezliklə qurtulacaq.

Uca Allahdan bəşəriyyəti tezliklə bu bəladan xilas etməyi, eləcə də cənab Prezident, Siz başda olmaqla ailə üzvlərinizlə bərabər bütün Azərbaycan xalqına sağlamlıq və əmin-amanlıq diləyirəm. Daim xalqın yanında olan sevimli Prezidentim, bu çətin günlərdə atdığınız hər bir addıma görə Sizə dərin minnətdarlığımı bildirirəm. Dualarımız hər zaman Sizinlədir."

### Fəxr edirəm ki, Sizin kimi dövlət başçımız var

Dünyanın artıq əksər ölkələrində yayılmış koronavirusun öz coğrafiyasını durmadan genişləndirdiyini yazan Mingəçevir sakini Gülşən Namazova bildirir ki, virusun qarşısının alınması üçün təsirli tədbirlər görən ölkələrdən biri də Azərbaycandır. Koronavirusun Azərbaycanda yayılmaması, əhalinin sağlamlığının qorunması üçün ölkəmizdə dövlət səviyyəsində bütün lazımi addımların atıldığını, ən yüksək səviyyədə qabaqlayıcı tədbirlərin görüldüyünü qeyd edən Gülşən Namazova daha sonra yazır: "Görülən işlər, qabaqlayıcı tədbirlər bir daha sübut edir ki, Siz daim xalqımızı düşünür, hər bir vətəndaşın qayğısına qalırsınız.

Əziz Prezidentimiz, qədirbilən Azərbaycan xalqı Sizin gördüyünüz işlərin dəyərini çox yaxşı başa düşür və hər zaman Sizə güvənir. Hər bir gözəl işinizə görə çox sağ olun. İndiki ağır günlərdə xalqımızı düşündüyünüzə, ona dəstək olduğunuza və onun qayğısına qaldığınıza görə Sizə dərin minnətdarlığımı bildirirəm. Qürur duyur və fəxr edirəm ki, Sizin kimi dövlət başçımız var. Allah Sizi qorusun!"

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Xeyirxahlıq nümunəsi



*Əvvəli 1-ci səh.*

Bütün dünyanı sarsıtmış koronavirus pandemiyası ilə bağlı ölkəmizdə xüsusi karantin rejiminin tətbiq olunduğu bir vaxtda xalqımızın həmrəy olmaq, insanseverlik nümayiş etdirmək, diqqət və qayğı göstərmək bacarığı hər birimizə ancaq qürur hissi yaşadır. İrsi qan xəstəliklərindən, xüsusilə də talassemiyadan əziyyət çəkən insanlara dəstək məqsədilə Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Qan Bankı tərəfindən keçirilmiş qanvermə aksiyasında könüllü olaraq iştirak edən Heydər Əliyev Fondunun və Heydər Əliyev Mərkəzinin əməkdaşlarına təşəkkürümü bildirirəm. Siz bu nəcib əməlinizlə bir insan həyatının xilaskarı olursunuz. Bu, ən yüksək qiymətə layiqdir! Əminəm ki, sizin təşəbbüsünüz bu məsələyə laqeyd yanaşmayan və ölkəmizin yaxşılıq etməyə hazır olan bütün vətəndaşları tərəfindən dəstəklənəcəkdir! Çox sağ olun!"

Azərbaycanda 1500-ə yaxın insanın irsi qan xəstəliyindən əziyyət çəkdiyini bildirən Milli Hematologiya və Transfuziologiya Mərkəzinin direktoru Valeh Hüseynov həmçinin cərrahi müdaxilələr və digər əməliyyatlar zamanı da qan lazım olduğunu vurğulayıb: "Bildiyiniz kimi, hazırda koronavirus pandemiyası ilə əlaqədar ölkəmizdə karantin rejimi tətbiq olunur. Bununla əlaqədar qan banklarında qan azlığı yaranıb. Hər zaman olduğu kimi xalqımız yenə də çətin günlərdə həmrəylik, birlik nümayiş etdirir. Belə ki, çoxsaylı aksiyalar keçirilir və vətəndaşlar ölkəmizdəki irsi qan xəstələrinə, o cümlədən qan ehtiyacı olan insanlara öz qanlarını verirlər. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva problemin həlli üçün təşəbbüs irəli sürüb. Təşəbbüsə əsasən Heydər Əliyev Mərkəzində qanvermə aksiyası təşkil olunub. Digər qurumları da bu aksiyalara qoşulmağa dəvət edirik."

Qeyd edək ki, Heydər Əliyev Fondu talassemiya problemi ilə bağlı ölkədə mühüm tədbirlər, o cümlədən 2005-ci ildən "Talassemiyasız həyat naminə" layihəsini həyata keçirir. Bu sahədə ixtisaslaşdırılmış tibb ocağının və qan bankının təşkili, yüksəkixtisaslı kadrların hazırlanması, talassemiyadan əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qan komponentləri, eləcə də tibbi xidmətlə təmin olunması məqsədi ilə fondun təşəbbüsü əsasında Talassemiya Mərkəzi yaradılıb. Talassemiyalı xəstələr bu mərkəzdə daimi müalicə alır, həmçinin müvafiq tədbirlər nəticəsində qan və onun komponentləri ilə təmin olunurlar.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## F.Z.Həsənovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında idman sahəsinin inkişafında xüsusi xidmətlərinə görə Faiq Zülfüqar oğlu Həsənov "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri 13 aprel 2020-ci il*

***Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 13 aprel tarixli Sərəncamına Əlavə***

## Oğuz rayonunda qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Yaşayış məntəqələri | Quyuların sayı, ədəd | Əhalinin sayı, nəfər |
|---|---|---|---|
| 1. | Baş Daşağıl kəndi | 1 | 1298 |
| 2. | Bucaq kəndi | 1 | 1623 |
| 3. | Xaçmazqışlaq kəndi | 1 | 567 |
| 4. | Xalxalqışlaq kəndi | 1 | 280 |
| 5. | Kərimli kəndi | 2 | 3554 |
| 6. | Muxas kəndi | 1 | 1244 |
| 7. | Padar kəndi | 1 | 2523 |
| 8. | Şirvanlı kəndi | 1 | 985 |
| 9. | Yaqublu kəndi | 1 | 662 |
| | **Cəmi** | **10** | **12 736** |

# Türk Şurasının üzvləri əsl əməkdaşlıq və anlaşma nümunəsi göstərdilər

## Fövqəladə Zirvə görüşünün əsas məqsədi türkdilli ölkələrin bir-birinə dəstək göstərməsi və xalqlarımız arasında həmrəyliyin möhkəmləndirilməsi idi

Aprelin 10-da Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirildi. Videokonfransa türkdilli dövlət başçıları ilə yanaşı, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Gebreyesus da qatılmışdı. Azərbaycan Prezidentinin təşəbbüsü ilə keçirilən videokonfrans bir neçə səbəbdən vacib idi.



Bu barədə qəzetimizə danışan Milli Məclis Sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev bildirdi ki, dövlət başçıları ilk növbədə dünyanı, sözün həqiqi mənasında, lərzəyə salan koronavirusla (COVID-19) mübarizə məsələsini müzakirə etdilər. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, fövqəladə Zirvə görüşünün əsas məqsədi dövlətlər səviyyəsində atılan addımlara dair təcrübə mübadiləsinin aparılması, türkdilli ölkələrin bir-birinə dəstək göstərməsi və xalqlarımız arasında həmrəyliyin möhkəmləndirilməsi idi. Cənab Prezident xüsusi olaraq vurğuladı ki, Azərbaycan ayrı-ayrı ölkələrə də öz dəstəyini göstərməkdədir.

Adil Əliyev daha sonra dedi: "İkincisi, türkdilli dövlətlərin fövqəladə Zirvə görüşünün keçirilməsi Türk Şurasının indiki ağır şəraitdə də fəaliyyətini davam etdirməyə qadir olduğunu, müzakirələrə ara vermədiyini nümayiş etdirdi. Türk Şurasının beynəlxalq təşkilatlarla əməkdaşlığı genişləndirməyə hazır olduğu videokonfrans tribunasından bir daha bəyan edildi. Bu mənada Zirvə toplantısı digər beynəlxalq təşkilatlara və birliklərə örnək sayıla bilər. Koronavirusla bağlı pandemiya özlərini strateji tərəfdaş adlandıran ölkələr arasında müxtəlif fikir ayrılıqları yaradarkən, qarşılıqlı ittihamlara yol açarkən, bəzilərini hətta strateji tərəfdaşlarının tibbi maskalarını hava limanlarından "oğurlamaq" dərəcəsinə çatdırarkən və gələcəkdə vəziyyətdən necə çıxacaqlarını bilməyənlərdən fərqli olaraq, Türk Şurasının üzvləri əsl əməkdaşlıq və anlaşma nümunəsi göstərdilər və bu əzmlə davam etmək niyyətində olduqları videokonfransdan bir daha göründü.

Üçüncüsü, videokonfrans vasitəsilə keçirilən fövqəladə Zirvə görüşündə iqtisadi mövzuların da müzakirə edilməsi onu göstərdi ki, Türk Şurası hətta bu ağır şəraitdə də belə iqtisadi və regional əməkdaşlığın inkişaf yollarını təhlil edərək gələcək addımlarını müəyyənləşdirir. Azərbaycan Prezidenti İlham Əliyev dedi ki, pandemiyanın mənfi təsirlərinə baxmayaraq, 2020-ci ilin ilk 3 ayı ərzində türkdilli ölkələrdən 180 min tondan artıq yük Azərbaycan vasitəsilə daşınıb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 40 min ton çoxdur. Bu, mühüm göstəricidir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə öz çıxışında Türkiyə, Azərbaycan və Gürcüstan arasındakı yük daşımaları üçün çəkilən dəmir yolunun Orta Asiyaya qədər uzadılmasının mümkünlüyünü vurğuladı. Bildirdi ki, hazırda əsas məqsəd Bakı-Tbilisi-Qars dəmir yolu ilə gündəlik 3 min 500 ton yük daşınmasına nail olmaqdır. Şübhə etmirəm ki, türkdilli dövlətlər buna da nail olacaqlar."

Adil Əliyevin sözlərinə görə, videokonfransda Türk Şurası ölkələrinin milli böhran mərkəzləri arasında əməkdaşlığın qurulması da təklif edildi: "Beləliklə, Türk Şurasına üzv ölkələr həm koronavirusa qarşı birgə mübarizə, həm də iqtisadi və regional əməkdaşlığın inkişafı yollarını ətraflı müzakirə etdilər. Əlbəttə, Türk Şurası ölkələri arasında hər iki istiqamətdə əməkdaşlığın inkişafında Azərbaycanın fəallığı danılmazdır."

Respublikamızda koronavirusla mübarizədə görülən işlərə toxunan Adil Əliyev dedi ki, hazırda infeksiyaya tutulmuş xəstələr 20-dən artıq dövlət xəstəxanasında müalicə olunurlar. Azərbaycan Prezidentinin qərarı ilə yaxın müddətdə hər birinin 200 çarpayılıq yeri olan 10 müasir modul tipli xəstəxana istifadəyə veriləcək. Dövlət başçısı koronavirusla mübarizə aparan həkimlərimizin əməyini yüksək qiymətləndirib. Bu infeksiyaya yoluxmuş vətəndaşlarımıza xidmət göstərən həkimlərin maaşı əvvəlki əməkhaqlarının 3-5 misli məbləğində artırılıb. Bu, dövlətin həkimlərə göstərdiyi qayğının təzahürüdür.

Milli Məclis Sədrinin müavini onu da qeyd etdi ki, Azərbaycanın pandemiya dövründəki fəaliyyəti, həmçinin ÜST ilə əməkdaşlığı başqa dövlətlərə örnəkdir: "Ölkə rəhbərliyinin təşəbbüsü ilə ÜST-ün nümayəndələri hələ martın əvvəllərində Bakıya dəvət olunmuşdular və o zaman koronavirusa qarşı birgə mübarizə məsələləri müzakirə edilmişdi. Vaxtında görülən tədbirlərin nəticəsidir ki, Azərbaycanda koronavirusun yayılmasını indiyədək nəzarətdə saxlamaq mümkün olub. Halbuki dünyanın aparıcı ölkələri epidemiya nəticəsində ağır itkilər verməkdə davam edirlər. Azərbaycan həmin dövlətlərin səhvlərini təkrarlamadı. Buna görədir ki, Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Gebreyesus martın 23-də Azərbaycan Prezidentinə göndərdiyi məktubda Azərbaycanda görülmüş işlərə yüksək qiymət verdi. O, pandemiyaya qarşı görülmüş tədbirlərə görə Azərbaycanı nümunəvi ölkə kimi dəyərləndirdi. Təşkilatın rəhbəri videokonfransda bu dəyərləndirməsini bir daha təkrarladı".

Azərbaycan Prezidenti koronavirusdan əziyyət çəkən vətəndaşları və sahibkarları da diqqət mərkəzində saxlayır. Koronavirus pandemiyası dünya ölkələrinin iqtisadiyyatına zərbə vurub. Prezidentimiz əhalinin sosial rifahını düşünərək Azərbaycanda iqtisadi sabitliyi təmin etmək, məşğulluqla bağlı problemləri həll etmək, həm də makroiqtisadi durumu və maliyyə vəziyyətini sabit saxlamaq üçün 2,5 milyard manat vəsait ayırıb. Bu barədə danışan Adil Əliyev təəssüflə qeyd etdi ki, Azərbaycanın koronavirusla uğurla mübarizə apardığı və bu mübarizənin dünya miqyasında yüksək qiymətləndirildiyi bir vaxtda ölkəmizdəki və xaricdəki marginal qüvvələr çirkin kampaniyalarından yenə də əl çəkmirlər: "Doğrudur, xaricdən dövlətimizin ünvanına hər zaman yalan və böhtan yağdıran birisi yazdığı statusda özü də etiraf etməli oldu ki, Azərbaycanın koronavirusla mübarizədə uğurları var. Bununla belə, marginalların ümumi dəstxəti ölkəmizin uğurlarına qara yaxmaqdır. Azərbaycan ictimaiyyəti belələrini yaxşı tanıyır və ona görə onların qaragüruhçu fəaliyyəti cəmiyyətimiz tərəfindən qəbul olunmur.

Dövlətimiz bütün institutları ilə gərgin fəaliyyət göstərir və hər bir sahə, xüsusilə də sosial problemlərin həlli daim diqqət mərkəzindədir. Biz ayaqdayıq, kimimiz ehtiyacı olan vətəndaşları müəyyənləşdirərək onlara yardıma tələsirik, kimimiz qan veririk və ağır xəstələri xilas edirik. Kimlərsə də azsaylı marginallar kimi kənarda dayanıb heç kimə yardım etmədən və özlərinin "siyasi ambisiyalarından" çıxış edərək iş görənlərin fəaliyyətini qaralamağa çalışırlar. Ancaq unudurlar ki, cəmiyyət bizim nə etdiyimizi də görür, sosial şəbəkənin əllərini ağdan-qaraya vurmayan qara təbliğatçılarını da".

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan koronavirus təhlükəsini layiqincə dəf edəcək

Müasir dünyamız koronavirus adlandırılan yeni təhdidlə üz-üzə qalıb. Şərqdən Qərbə doğru sürətlə yayılaraq 1,9 milyona yaxın insanın yoluxmasına səbəb olan bu infeksiya hətta ən inkişaf etmiş dövlətləri və onların səhiyyə sistemlərini belə çıxılmaz vəziyyətdə qoyub. Son statistik məlumatlara əsasən, 200-dən artıq ölkədə vəfat edənlərin sayı 114 mindən çoxdur. Və bu rəqəmlər hər gün artır.

Azərbaycan çağdaş sivil dünyanın tərkib hissəsi olduğundan iqtisadiyyatımız qlobal iqtisadiyyata, sərhədlərimiz gediş-gəlişə açıqdır. Bu baxımdan hələ fevralın sonunda yeni növ COVID-19 infeksiyasının ölkəmizin ərazisində qeydə alınması təəccüblü sayılmamalıdır. Əsas odur ki, bu qlobal təhlükənin Azərbaycan ərazisində yayılmasının qarşısını almaq üçün ilk gündən qabaqlayıcı və məhdudlaşdırıcı mexanizmlər tətbiq olundu. Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmasından başlamış, qonşu ölkələrlə gediş-gəlişin, virusun yayılmasına əsas vəsilələrdən olan insanlar arasında təmasın minimallaşdırılması üçün məktəblərin, bağçaların, idman zallarının, ticarət və əyləncə mərkəzlərinin fəaliyyətinin dayandırılması, park və ictimai istirahət yerlərinə girişin qadağan olunması, kütləvi tədbirlərin keçirilməsinin təxirə salınması, martın 24-dən xüsusi karantin rejiminin, aprelin 5-dən isə ölkədə hərəkət məhdudiyyətinin tətbiqi kimi qabaqlayıcı və məhdudlaşdırıcı tədbirlər Azərbaycanda koronavirus infeksiyası probleminin bir sıra ölkələrdəki kimi təhlükəli hal almasının qarşısını alıb.

Respublikamızda koronavirusla mübarizə sahəsində diqqətimizi çəkən əsas məsələ Prezident İlham Əliyevin problemin həllində nümayiş etdirdiyi olduqca prinsipial və nümunəvi mövqedir. Cənab İlham Əliyevin mart və aprel aylarındakı fəaliyyətinə nəzər salsaq, görərik ki, dövlət başçısı diqqətini əsas etibarilə virusun Azərbaycanda yayılmasının qarşısının alınmasına və problemin sosial-iqtisadi sferaya təsirlərinin aradan qaldırılmasına yönəldib. Cənab İlham Əliyevin fərman və sərəncamları ilə məqsədi koronavirus infeksiyasının Azərbaycanda yayılmasının qarşısını almaqdan və həyata keçirilən tədbirlərə maliyyə dəstəyini təmin etməkdən ibarət olan Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması və buraya Prezidentin Ehtiyat Fondundan ilkin olaraq 20 milyon manatın ayrılması, koronavirus xəstələrinə xidmət göstərən həkimlərin maaşının artırılması, 575 çarpayıdan ibarət olan, ölkəmizin ən müasir və "Yeni klinika" adlanan xəstəxanasının virusa yoluxan xəstələrin müalicəsi üçün onların ixtiyarına verilməsi, Sumqayıt Kimya Sənaye Parkında yaradılan tibbi maska istehsalı müəssisəsinin fəaliyyətə başlaması, koronavirusla əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyac duyan yaşı 65-dən yuxarı olan 176 məhkumun əfv edilməsi, pandemiya ilə mübarizə sahəsində həyata keçirilən səhiyyə tədbirləri çərçivəsində tibb müəssisələrinə və tibbi avadanlığa artan tələbatın qarşılanması və infeksiyaya yoluxmuş xəstələrin müalicəsinin səmərəli təşkili məqsədilə modul tipli 6 xəstəxananın quraşdırılması üçün 14,8 milyon manatın ayrılması ilk növbədə Prezident İlham Əliyevin problemin həllində göstərdiyi həssas və çevik reaksiya, bir lider olaraq öz xalqına qayğıkeş münasibətidir. İndiyədək 15 mindən artıq Azərbaycan vətəndaşının müxtəlif ölkələrdən dövlət hesabına təşkil olunmuş çarter reysləri vasitəsilə təxliyə edilməsi isə cənab İlham Əliyevin hər bir məsələdə öz xalqının yanında olduğunu, öz vətəndaşının taleyinə son dərəcə diqqətlə yanaşdığını növbəti dəfə təsdiq etdi.

Qeyd edim ki, Koronavirusla Mübarizəyə Dəstək Fonduna 9200-dən artıq fiziki və 3 minə yaxın hüquqi şəxs tərəfindən 112 milyon manata yaxın ianə edilib. Əhalinin müxtəlif təbəqələrinin, o cümlədən sahibkarlıq subyektlərinin bu növ tədbirlərə dəstək verməsi, sosial həmrəylik nümayiş etdirməsi görülən işlərin səmərəliliyinə bilavasitə təsir edən xüsusi əhəmiyyətli məsələlərdən olmaqla, dövlət - vətəndaş birliyini əks etdirən əsas faktorların bariz göstəricisidir. Qısa müddətdə bu qədər vəsaitin toplanması həm də Azərbaycan cəmiyyətinin Prezident Əliyevin ətrafında sıx səfərbər olmasının və dövlət başçısının çağırışına böyük dəstəyinin ifadəsidir.



Azərbaycanda iqtisadi sabitliyi təmin etmək, məşğulluqla bağlı problemləri həll etmək, makroiqtisadi və maliyyə vəziyyətini sabit saxlamaq üçün ümumilikdə 2,5 milyard manat vəsaitin ayrılması isə bütün ölkə ictimaiyyəti tərəfindən böyük razılıq və dərin rəğbətlə qarşılanır. Ümumilikdə dövlət dəstəyindən 290 mindən çox sahibkar faydalanacaq, 44 min sahibkarlıq subyektində çalışan 300 mindən çox işçinin əməkhaqqının əhəmiyyətli bir hissəsini dövlət ödəyəcək. Aztəminatlı ailələrə dəstək məqsədilə işsiz şəxslərə birdəfəlik ödəmənin verilməsinə isə artıq ötən həftədən başlanılıb. İşsiz şəxslərin sosial müdafiəsi üçün 50 min ödənişli ictimai iş yeri də yaradılacaq.

Onu da qeyd etmək yerinə düşər ki, bu günlər biz Birinci vitse-prezident Mehriban Əliyevanın problemə olduqca həssas münasibətini görməkdəyik. Bunu Mehriban Əliyevanın son dövrlərdə koronavirus infeksiyası ilə bağlı xalqımıza müraciəti, eləcə də rəsmi "Instagram" səhifəsində etdiyi paylaşımlar da təsdiq edir. Müdrik xalqımızın ən gözəl xüsusiyyətləri - ruh yüksəkliyi və mərdlik, mərhəmət və şəfqət, inam və məhəbbət sayəsində birlikdə bu ciddi çağırışın öhdəsindən gələcəyimizə əmin olduğunu bildirən və koronavirusla mübarizə aparan tibb işçilərinin əməyini yüksək dəyərləndirən Mehriban Əliyeva həmçinin hər kəsi bu günlərdə məsuliyyətli olmağa səsləyir. "Hər birimiz dövlət tərəfindən görülən tədbirlərin vacibliyini birmənalı olaraq başa düşməli və maksimum dərəcədə vətəndaş məsuliyyəti nümayiş etdirməliyik. Məhz bu cür, bir-birimizi qayğı ilə dəstəkləyərək, dözüm və anlayış göstərərək taleyin hökmü ilə üzləşdiyimiz qorxunc sınaqdan üzüağ çıxıb koronavirus üzərində qələbədən sonrakı həyat üçün hər kəsi qoruya bilərik", - deyə Mehriban Əliyeva bildirir.

Koronavirus infeksiyasının yayılması mənfi fəsadları ilə yanaşı, xalqımıza xas gözəl milli və mənəvi dəyərləri də ortaya qoydu. Belə ki, bu günlərdə hər bir vətəndaşımızın nümayiş etdirdiyi mühüm dəyərlərdən biri də milli həmrəyliyimizdir. Sosial izolyasiya və karantin rejiminin tələblərinə əməl edilməsi ilk növbədə milli həmrəyliyin təcəssümüdür. Vətəndaşlar evdə qalarlarsa, karantin rejiminin tələblərinə əməl edərlərsə, koronavirus infeksiyasının da yayılmasının qarşısı alınar. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Biz birlikdə güclüyük!" Məhz bu birliyimiz Azərbaycanın koronavirusa qalib gəlməsini təmin edəcək.

Aprelin 10-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans vasitəsilə koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunan fövqəladə Zirvə görüşünün keçirilməsi isə Prezident İlham Əliyevin türkdilli dövlətlərin həmrəyliyinə verdiyi tarixi töhfə kimi yadda qaldı. Çünki bu videokonfrans hazırda Türk Şurasına sədrlik edən İlham Əliyevin təşəbbüsü ilə baş tutdu. Ən əsası isə odur ki, videokonfransda Türk Şurasının üzvü olan Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan prezidentləri ilə yanaşı, Türkmənistan prezidentinin, Macarıstan Baş Nazirinin və ÜST-ün baş direktorunun iştirakı Prezident İlham Əliyevin beynəlxalq səviyyədəki yüksək nüfuzunun növbəti təsdiqi kimi tarixə düşdü.

Azərbaycan həmişə ortaq dəyərlərlə bağlı olan türkdilli dövlətlərin sıx həmrəyliyinə nail olmağa çalışıb. Çünki bu birlik türk dövlətlərinin müstəqilliklərini daha da möhkəmləndirmək, onların qlobal təsirlərə layiqli cavab verməsi baxımından çox mühümdür. Bu gün koronavirus pandemiyasının yaratdığı qlobal reallıq Azərbaycanın həmrəylik çağırışının nə qədər aktual olduğunu göstərir. Bu mənada Prezident İlham Əliyevin təşəbbüsü ilə fövqəladə Zirvə görüşünün keçirilməsi Azərbaycanın daha sıx həmrəyliyə nail olunması baxımından siyasi iradəsini nümayiş etdirdi. Eyni zamanda bu Zirvə görüşündə səslənən fikirlər göstərdi ki, Prezident İlham Əliyev indiki çətin şəraitdə də belə Türk Şurasının səmərəli fəaliyyət göstərməsinə nail olur.

***Nəsib MƏHƏMƏLİYEV,***
***Milli Məclisin deputatı***

# İlham Əliyevdən növbəti qlobal təşəbbüs

## Azərbaycan Prezidenti Türk Şurasının fövqəladə Zirvə görüşündə dünyanı pandemiyaya qarşı mübarizədə həmrəyliyə, birgə əməkdaşlığa çağırdı

***Əvvəli 1-ci səh.***

Azərbaycanın pandemiyaya qarşı mübarizədə ilk günlərdən Ümumdünya Səhiyyə Təşkilatı ilə səmərəli əməkdaşlıq etdiyini vurğulayan dövlət başçısı ölkəmizdə həyata keçirilən qabaqlayıcı tədbirlər barədə geniş məlumat verdi. Hər kəs Azərbaycanın koronavirus pandemiyasına qarşı mübarizədə fəal rol oynadığının bir daha şahidi oldu.

Zirvə görüşündə həmçinin pandemiyanın yaratdığı sosial-iqtisadi problemlərə də toxunuldu. Dövlət başçıları iqtisadi itkilərin minimuma endirilməsi məsələsini gündəmə gətirdilər. Prezidentlər Azərbaycanın həyata keçirdiyi qlobal tranzit layihələrinin hazırkı iqtisadi kommunikasiya sahəsində mühüm əhəmiyyət kəsb etdiyini bildirdilər. Bakı-Tbilisi-Qars dəmir yolunun önəmi bir daha vurğulandı və qarşılıqlı iqtisadi mənafelərin təmin edilməsi baxımından olduqca yüksək qiymətləndirildi.

Bütövlükdə isə Azərbaycanın təşəbbüsü ilə keçirilən Türk Şurasının Zirvə toplantısı həm şura üzvlərinin həmrəyliyi və digər beynəlxalq təşkilatlarla əməkdaşlığı kontekstində, həm də hazırkı vəziyyətdə qlobal təhlükəyə qarşı birgə mübarizə səylərində vacib və əhəmiyyətli tarixi bir hadisə kimi yadda qaldı.

### Pandemiya dövründə Azərbaycan vasitəsi ilə 180 min tondan artıq yük daşınıb

Prezident İlham Əliyevin və quruma üzv olan digər ölkə liderlərinin çıxışlarından bir daha bəlli oldu ki, üzv ölkələrinin iqtisadiyyatı, ticarət münasibətləri və idxal-ixrac əməliyyatları üçün nəqliyyat daşımaları mühüm əhəmiyyətə malikdir. Azərbaycan Türkiyə və Mərkəzi Asiya arasında etibarlı tranzit-logistika mərkəzi kimi öz roluna məsuliyyətlə yanaşaraq, tranzit yüklərin daşınması üçün əlavə tədbirlər görür.

Hətta pandemiyanın mənfi təsirlərinə baxmayaraq, 2020-ci ilin ilk üç ayı ərzində türkdilli ölkələrdən 180 min tondan artıq yük Azərbaycan vasitəsi ilə daşınıb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 40 min ton çoxdur.

Bir sözlə, bütün çıxışlardan bəlli oldu ki, dostluq və qardaşlıq təməlləri əsasında qurulan Türk Şurasına sədrliyi dövründə Azərbaycan dünyada təşkilatın nüfuzunun daha da artırılması, üzv ölkələr arasında əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi istiqamətində əlindən gələni əsirgəmir.

Prezident İlham Əliyev çıxışı zamanı həmçinin bildirdi ki, mövcud qlobal pandemiya şəraitində Türk Şurasının üzv dövlətləri özlərinə qapanmayıblar. Təşkilat olaraq Türk Şurası digər beynəlxalq təşkilatlarla əməkdaşlığa hazırdır. Azərbaycan ayrı-ayrı ölkələrə də öz dəstəyini göstərməkdədir: "Səhiyyə xidmətləri sahəsində əməkdaşlığımız, o cümlədən tibb mütəxəssislərinin təcrübə mübadiləsi, birgə tibbi komissiyaların yaradılması üçün yaxşı imkanlar vardır. Bundan əlavə, sərnişin nəqliyyat daşımalarının müvəqqəti bağlanmasına görə ölkələrimizin ərazisində qalan bir-birimizin vətəndaşlarına dəstək və yardım göstərməyimiz vacibdir. Bizim gördüyümüz bu tədbirlər vətəndaşlarımızın sağlamlığının qorunması və pandemiyanın doğurduğu sosial-iqtisadi fəsadların yüngülləşdirilməsi, iqtisadiyyatlarımızın davamlı inkişafının təmin edilməsi məqsədi daşıyır. Ümid edirəm ki, ölkələrimiz və xalqlarımız bu ağır vəziyyətin öhdəsindən layiqincə gələcək və pandemiyaya qarşı qlobal mübarizəyə öz layiqli töhfəsini verəcəkdir."

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin növbəti onlayn iclası keçirilib

Aprelin 13-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin növbəti onlayn iclası keçirilib.

Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclası açan komitə sədri Tahir Mirkişili gündəlik barədə məlumat verib. Bildirib ki, gündəliyə iki məsələ - "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında və "Təhsil haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında sənədlər (birinci oxunuşda) daxildir.

Komitə sədri məsələlərin əhəmiyyəti barədə danışıb. Birinci məsələ ilə bağlı qeyd edilib ki, təklif olunan dəyişiklik, kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı mülki-hüquqi xarakterli müqavilələr əsasında mövsümi işlərə cəlb edilən fiziki şəxslərə gündəlik ödənişin nağd qaydada verilə bilməsini nəzərdə tutur. Bu ödənişin yuxarı həddi 20 manat məbləğində müəyyən edilir. Qanun layihəsi işə cəlb olunanların uçotunun dürüstləşdirilməsinə və sosial müdafiəsinin təmin olunmasına imkan yaradır.

Gündəlikdə olan ikinci məsələ "Təhsil haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş) idi. Komitə sədri vurğulayıb ki, qanuna təklif olunan dəyişikliklər "Təhsil haqqında" qanuna təklif olunan dəyişikliklərə uyğunlaşdırma xarakteri daşıyır. Belə ki, xarici ölkələrin ali təhsil müəssisələrinin diplomlarının tanınması bir xidmət növü kimi müəyyən edildiyindən və həmin xidmətə görə xidmət haqqı tutulduğundan, "Dövlət rüsumu haqqında" qanunda müvafiq dəyişiklik edilir və xarici ölkələrin ali təhsil müəssisələrinin diplomlarının tanınmasına görə dövlət rüsumu ləğv edilir.

Hər iki qanun layihəsi ilə bağlı komitə üzvləri öz fikir və təkliflərini söyləyiblər.

Müzakirələrdən sonra hər iki məsələ Milli Məclisin plenar iclasında baxılmaq üçün tövsiyə olunub.

# Azərbaycanda daha 50 nəfər koronavirus infeksiyasına yoluxub, 39 nəfər müalicə olunaraq sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 50 yoluxma faktı qeydə alınıb, bir nəfər vəfat edib, 39 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatında deyilir.

Məlumatda bildirilir ki, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1955-ci il təvəllüdlü vətəndaş vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 1148 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 289 nəfəri müalicə olunaraq sağalıb, 12 nəfər vəfat edib, 847 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 25 nəfərin vəziyyəti ağır, 30 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ölkəmizdə müxtəlif karantin zonalarına yerləşdirilən 2373 nəfərin müayinəsi ilə bağlı müvafiq tədbirlər həyata keçirilir.

# Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri hazırlıq məşqlərinə başlayıb

Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci ilin döyüş hazırlığı planına əsasən Hava Hücumundan Müdafiə bölmələri hazırlıq məşqlərinə başlayıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, S-300 "Favorit" zenit-raket komplekslərinin divizionları normativlərə uyğun olaraq marş edərək start mövqelərinə yerdəyişmə, ərazinin hazırlanması və maskalanması tapşırıqlarını icra edirlər.

Raket bölmələri vacib obyektlərin hava hücumundan mühafizəsi və şərti düşmənin raket zərbələrinin dəf edilməsi üzrə tapşırıqları da yerinə yetirirlər.

# Naxçıvan Qarnizonu Qoşunlarında komanda-qərargah təlimi başlayıb

"Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı"na əsasən bir neçə birləşmə və hissənin cəlb edilməsi ilə komanda-qərargah təlimi başlayıb.

Əlahiddə Ümumqoşun Ordunun mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, müxtəlif döyüşə hazırolma dərəcələrinə gətirilən birləşmə və hissələrin bölmələri cəmləşmə və döyüş təyinatı rayonlarına, atəş və start mövqelərinə çıxarılaraq ərazidə maskalanma, mühafizə və mühəndis təminatı üzrə tədbirləri yerinə yetirir.

Düşmənin kəşfiyyat-diversiya, hava hücumu, raket və artilleriya zərbələrinə qarşı şəxsi heyətin fəaliyyətləri məşq etdirilir.

İdarəetmənin təşkili üçün ərazidə dayaq və mobil radioqovşaqlar açılıb.

# Sosial baxımdan həssas əhali qrupuna aid ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsinə dair qərar imzalanıb

Baş Nazir Əli Əsədov "Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi barədə" Qərar imzalayıb.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Qərar "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamına əsasən imzalanıb. Qərar əsasən:

1. Azərbaycan Respublikasının təhsil müəssisələrində normativ təhsil müddətində ödənişli əsaslarla əyani təhsil alan (təkrar ali və orta ixtisas təhsili istisna olmaqla) və sosial baxımdan aşağıdakı həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin 2020-ci ildə tədris semestrləri (yarımillikləri) üçün təhsil haqqı xərcləri dövlət büdcəsinin vəsaiti hesabına ödəniləcək:

1.1. Ünvanlı dövlət sosial yardımı alanlar;

1.2. Hər iki valideyni (tək valideyni olduqda isə həmin şəxs) və ya qanuni nümayəndələri aşağıdakı kateqoriyaların hər hansı birinə aid olanlar:

1.2.1. I və II dərəcə əlilliyi olan şəxslər;

1.2.2. işsiz kimi qeydiyyatda olanlar;

1.2.3. yaşa görə əmək pensiyaçıları;

1.2.4. yaşa görə sosial müavinət alanlar.

2. Bu Qərarın 1-ci hissəsində qeyd olunan tədris semestrləri (yarımillikləri) üçün dövlət büdcəsi hesabına ödənilməsi nəzərdə tutulan təhsil haqqı xərci ali təhsil müəssisələrində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 120 nömrəli Qərarı ilə təsdiq edilmiş ayrı-ayrı ixtisaslar üzrə hər bir təhsilalana düşən təhsil xərclərinin, orta ixtisas və peşə təhsili müəssisələrində isə illik təhsil haqqının 50 faizi miqdarında müəyyən edilir.

3. Azərbaycan Respublikasının Təhsil Nazirliyi təhsil müəssisələri (tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq) tərəfindən təqdim edilən məlumatlar əsasında normativ təhsil müddətində ödənişli əsaslarla əyani təhsil alan və sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələri Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" vasitəsilə müəyyən edərək bu Qərarın icrasını təmin edəcək.

4. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi və ali, orta ixtisas və peşə təhsili müəssisələri 20 gün müddətində bu Qərarın icrası üçün zəruri informasiya sistemlərinin və ehtiyatlarının "Elektron hökumət" portalı üzərindən Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nin sorğularının cavablandırılması qaydasında inteqrasiyası üçün müvafiq tədbirləri həyata keçirəcəklər.

5. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi bir ay müddətində "Elektron hökumət" portalı vasitəsilə bu Qərarın 4-cü hissəsində nəzərdə tutulmuş dövlət orqanlarının və qurumlarının informasiya sistemlərinin və ehtiyatlarının Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nə inteqrasiyasını təmin edəcək.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Azərbaycan Respublikası Təhsil Nazirliyinin təqdim etdiyi sifarişlərə uyğun olaraq maliyyələşməni təmin edəcək.

# Azərbaycan ilə Rusiya arasında əməkdaşlıq gündəliyində duran məsələlər müzakirə olunub

Aprelin 13-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov ilə Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrov arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, tərəflər ikitərəfli əməkdaşlıq gündəliyində duran məsələlər üzrə ətraflı müzakirələr aparıblar.

Nazirlər hər iki ölkənin COVID-19 pandemiyası ilə mübarizə tədbirlərinə dair fikir mübadiləsi həyata keçiriblər. Mövcud vəziyyətdə iki ölkə sərhədində olan vəziyyət müzakirə olunub və tərəflər vurğulayıblar ki, müvəqqəti olaraq sərhədlərin bağlanılması hər hansı bir şəkildə iki ölkə arasında, eyni zamanda, digər ölkələrə münasibətdə beynəlxalq yükdaşımalarına təsir göstərməyəcək.

Xarici İşlər nazirləri, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə, o cümlədən münaqişənin həlli istiqamətində atıla biləcək addımlar barədə fikir mübadiləsi aparıblar.

Nazirlər COVID-19 pandemiyası ilə bağlı vəziyyət aradan qaldırıldıqdan sonra məsləhətləşmələri davam etdirməyi razılaşdırıblar.

Tərəflər, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən BMT və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlıq məsələlərini müzakirə ediblər.

# Azərbaycanda əhali üzrə elektrik enerjisinin aylıq istehlak həcmi iki ay müddətində artırılıb

Nazirlər Kabineti "Əhali üzrə elektrik enerjisinin aylıq istehlak həcminin tənzimlənməsi ilə bağlı tədbirlər haqqında" Qərar verib.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Qərar Baş Nazir Əli Əsədov tərəfindən "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamına uyğun olaraq imzalanıb. Qərara əsasən:

1. "Elektrik enerjisinin ölkədaxili tariflərinin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2016-cı il 28 noyabr tarixli 17 nömrəli Qərarı ilə müəyyən edilmiş əhali üzrə elektrik enerjisinin 7 qəpik/kilovat-saat tarifi tətbiq olunan aylıq istehlak həcmi 2020-ci ilin aprel ayından etibarən ardıcıl iki hesabat ayı müddətində 100 (yüz) kilovat-saat artırılaraq 400 (dörd yüz) kilovat-saat müəyyən edilir.

2. Bu Qərar bütün əhali istehlakçılarının aprel ayında sayğac oxunduğu gündən sonrakı iki hesabat ayı üçün istehlak etdikləri elektrik enerjisinə şamil edilir. Hesabat ayı üçün istehlak edilən elektrik enerjisi dedikdə, ardıcıl 30 (otuz) təqvim günü ərzində istifadə edilmiş elektrik enerjisinin həcmi nəzərdə tutulur.

3. "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinə tapşırılır ki:

3.1. bu Qərarın 1-ci hissəsi ilə edilən dəyişiklik nəticəsində elektrik enerjisinin əhali tərəfindən aşağı tariflə istehlakından yaranan fərqin Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamı ilə ayrılan vəsait hesabına kompensasiya edilməsi məqsədilə zəruri məlumatların və təsdiqedici sənədlərin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin;

3.2. bu Qərarın icrasından irəli gələn digər məsələləri həll etsin.

# Ərzaq satışı məntəqələrində xüsusi karantin rejimi ilə əlaqədar monitorinqlər davam etdirilir

Ölkəmizdə koronavirusa qarşı həyata keçirilən mübarizə tədbirləri çərçivəsində tətbiq olunmuş xüsusi karantin rejimi ilə əlaqədar Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) əməkdaşları ərzaq məhsullarının satışı məntəqələrində monitorinqlər davam etdirilir. Belə ki, agentliyin əməkdaşları qida sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin, ərzaq məhsullarının satışı məntəqələrində xüsusi karantin rejiminə, eləcə də qurumun bu sahədə hazırladığı metodiki göstərişlərə əməl olunması ilə bağlı monitorinqlər keçirirlər.

AQTA-nın İnformasiya təminatı və innovativ həllər şöbəsindən AZƏRTAC-a bildirilib ki, agentlik növbəti belə monitorinqi Sumqayıt şəhərində fəaliyyət göstərən ərzaq məhsullarının satışı məntəqələrində təşkil edib. Monitorinqlər zamanı qida məhsullarının satışı ilə məşğul olan sahibkarlıq subyektlərinə termiki emal olunmadan və təmizlənmədən keçmədən istifadə olunan qida məhsullarının xüsusi yerlərdə saxlanılması, bu məhsulların alıcılara xüsusi geyimli market əməkdaşları tərəfindən təqdim edilməsi ilə bağlı tövsiyələr verilib. AQTA əməkdaşları tərəfindən hazırlanmış təşviqat xarakterli çap materialları ərzaq satışı məntəqələrində quraşdırılıb.

Qeyd edək ki, indiyədək agentlik tərəfindən bu sahədə bir neçə metodiki göstəriş hazırlanaraq müvafiq sahibkarlıq subyektlərinə rəsmi şəkildə təqdim olunub. Maarifləndirmə tədbirləri çərçivəsində respublikamızın bütün bölgələrində, eləcə də Bakı şəhərində fəaliyyət göstərən ərzaq məhsullarının satışı məntəqələrində AQTA əməkdaşları tərəfindən hazırlanmış təşviqat xarakterli çap materialları da ərzaq satışı məntəqələrində quraşdırılıb.

Agentlik bir daha vətəndaşları koronavirusla əlaqədar ərzaq məhsullarının satışı obyektlərində tətbiq olunmuş xüsusi rejimə əməl etməyə, virusdan qorunmaq üçün tələb olunan metodiki göstərişlərdə nəzərdə tutulmuş qaydalara ciddi şəkildə riayət etməyə çağırır.

AQTA əhalinin sağlamlığının qorunması və təhlükəsiz qida məhsulları ilə təmin edilməsi istiqamətində ardıcıl tədbirlərini bundan sonra da davam etdirəcək və istehlakçı hüquqlarının pozulmasına yönəlmiş qanunsuz halların qarşısını alacaq.

# Maliyyə Nazirliyi: "Koronavirusla bağlı zərərə məruz qalmış 5752 sahibkara maliyyə dəstəyi göstərilib"

Koronavirus pandemiyası nəticəsində zərərə məruz qalmış iqtisadi sahələrdə fəaliyyət göstərən sahibkarlara maliyyə dəstəyinin göstərilməsi davam etdirilir.

Maliyyə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, aprelin 13-də nazirliyin Dövlət Xəzinədarlığı Agentliyi İqtisadiyyat Nazirliyinin təqdim etdiyi sifarişlər əsasında iş yerlərinin və sosial sabitliyin qorunması istiqamətində pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin əməkhaqqının ödənilməsi üçün 1983 vergiödəyicisinə 3 milyon 652 min manat, pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən 2560 fərdi (mikro) sahibkara isə 2 milyon 948 min manat vəsaiti onların müvafiq bank hesablarına köçürüb.

Bundan əvvəl, aprelin 9-da Maliyyə Nazirliyi tərəfindən ilk tranş da nəzərə alınmaqla, bugünkü tarixə 5752 vergiödəyicisinə ümumilikdə 8 milyon 939 min manat maliyyə dəstəyinin göstərilməsi təmin olunub.

Koronavirus (COVID-19) pandemiyasının və dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli Sərəncamına uyğun olaraq Nazirlər Kabinetinin 2020-ci il 4 aprel tarixli Qərarı ilə təsdiqlənən Tədbirlər Planına uyğun olaraq sahibkarlara maliyyə dəstəyinin ödənilməsi onların müraciəti əsasında İqtisadiyyat Nazirliyi tərəfindən formalaşdırılaraq təqdim olunan sifarişlər əsasında xəzinədarlıq orqanları tərəfindən gündəlik əsasda davam etdirilir.

# Heydər Əliyev Mərkəzinin binası üzərinə Türkiyə bayrağının videoproyeksiya edilməsi qardaş ölkə KİV-nin diqqətində olub



















Koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizədə Azərbaycanın dəstəyini nümayiş etdirmək məqsədilə aprelin 11-də Heydər Əliyev Mərkəzinin binası üzərinə Türkiyə Respublikasının bayrağının bu ölkənin musiqisinin müşayiəti ilə videoproyeksiya olunması Türkiyənin və Şimali Kiprin aparıcı KİV tərəfindən geniş şəkildə işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, Türkiyə Xarici İşlər naziri Mövlud Çavuşoğlu yayımın ilk anlarından videoproyeksiyanı sosial şəbəkədə xoş sözlərdən ibarət mətinlə paylaşıb. Prosesi böyük sevgi ilə qarşılayan ölkə ictimaiyyətinin nümayəndələri bunu Azərbaycan-Türkiyə qardaşlığına daha bir bariz nümunə kimi dəyərləndiriblər.

Qardaş ölkənin Anadolu Agentliyində, "trthaber", "akşam", "milliyet", "kibrisadahaber", "sabah", "yesiligdir", "yenişafak", "hürriyet" və digər saytlarında Heydər Əliyev Mərkəzinin binası üzərinə Türkiyə bayrağının videoproyeksiya edilməsi ilə bağlı informasiyalar yerləşdirilib.



## Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası maşın, avadanlıq və ləvazimatların satın alınması üzrə büdcədənkənar vəsait hesabına keçiriləcək elektron tender elan edir

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

| | |
|---|---|
| **İŞTİRAK HAQQI:** | **1300 (bir min üç yüz) manat** |
| **TƏŞKİLAT:** | **AZƏRBAYCAN DÖVLƏT BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN AKADEMİYASI** |
| **BANKIN ADI:** | **KAPİTAL BANKIN GƏNCLİK FİLİALI** |
| **KOD:** | **200189** |
| **VÖEN:** | **9900003611** |
| **MÜXBİR HESABI:** | **AZ37NABZ01350100000000001944** |
| **SWİFT BİK:** | **AIIBAZ2X** |
| **H/HESABI:** | **AZ20AIIB38090019440138430118** |
| **VÖEN:** | **1500374911** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər:*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **01.05.2020-ci il saat 11:00-a** qədər, tender təklifi və bank təminatını isə **12.05.2020-ci il saat 11:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **13.05.2020-ci il saat 11:00-da** açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılacaqdır.*

***Tender komissiyası***

## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti açıq tenderə dəvət edir

Tender 1 LOT üzrə keçirilir: **Taksafon kabinalarının (London tipli) satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər **100 (bir yüz) manat (ƏDV daxil)** iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **06 may 2020-ci il saat 17:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla):

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında vergi və sosial müvafiq orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

İddiaçılar tender təklifini və bank təminatını **15 may 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **16 may 2020-ci il saat 11:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd:** *Tenderdə iştirak, tender qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada* ***etender@gov.az*** *dövlət satınalmalarının vahid internet Portalında aparılır.*

***Tender komissiyası***

**Biz birlikdə güclüyük!**

# Ağcabədi çətin sınaqdan üzüağ çıxacaq

## Rayonda bütün qüvvələr bu məqsəd üçün səfərbərdir








Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Biz birlikdə güclüyük!” şüarına dəstək olaraq Ağcabədi Rayon İcra Hakimiyyətinin təşəbbüsü və təşkilatçılığı ilə rayonda ehtiyacı olan yüzlərlə ailəyə ərzaq yardımı paylanması davam edir.

Rayon icra hakimiyyəti başçısı aparatının əməkdaşları, inzibati ərazi dairəsi üzrə nümayəndələr, bələdiyyə üzvləri, ayrı-ayrı sahibkarlar, o cümlədən rayonun hüquq inzibati orqanları, digər vəzifəli şəxslər və xeyirxah vətəndaşların qoşulduğu “BİZ BİRLİKDƏ GÜCLÜYÜK!” adlı kampaniya çərçivəsində rayonun şəhər, qəsəbə və kəndlərində ehtiyacı olan 700-dən çox ailənin evinə yardım payları çatdırılıb. Rayon icra hakimiyyəti tərəfindən 1000 ailəyə hər birinə 10 kiloqramlıq un payları göndərilmişdir.

Mart ayının son günlərindən etibarən Ağcabədidə başlanılmış digər bir xeyirxah təşəbbüslə 130-dan çox ərzaq mağazasında “Karantin dövründə PULSUZ ÇÖRƏK” aksiyası da davam etdirilir. Həmin mağazalardan alış-veriş edən xeyirxah şəxslər müəyyən məbləğdə ianə etməklə imkansız, ehtiyacı olan sakinlərin pulsuz çörək əldə etməsinə yardımçı olurlar. Aksiyanın məqsədi aztəminatlı ailələri, kimsəsiz və tənha həmvətənləri pulsuz çörəklə təmin etməkdir.

Ağcabədidə 200-dən çox tənha adam yaşayır. Xüsusi karantin rejiminin tələblərinə əsasən evdən çıxmayan həmin şəxslərə sosial işçilər tərəfindən xidmət göstərilir və bununla yanaşı, həmin şəxslərə gün ərzində pulsuz çörək çatdırılır.

Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi xüsusi karantin rejiminin tələb və tövsiyələrinə də rayonda ciddi əməl olunur. Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması və sosial təcridin gücləndirilməsi, rayonda xüsusi karantin rejiminin tələblərinin yerinə yetirilməsinə nəzarət, habelə fərdi izahetmə-xəbərdarlıq işinin aparılması üçün rayon icra hakimiyyəti başçısı aparatı, inzibati ərazi nümayəndəlikləri, bələdiyyələr və könüllü fəallardan ibarət 82 mobil qrup yaradılıb. Həmin qruplar tərəfindən bu günədək 20 mindən çox ailə ziyarət olunub. Mobil qruplar vasitəsilə imkansız ailələr öyrənilərək onlara yardım edilir. Həmçinin vətəndaşlarla görüşdə ölkədə tətbiq olunan xüsusi karantin rejiminə ciddi əməl olunması, zərurət olmadan digər şəxslərlə təmasda olmamaları və virusun yayılmasının qarşısının alınmasına dəstək olacaq şəxsi gigiyena qaydalarına əməl etməyin vacibliyi vurğulanır. Vətəndaşlara özlərinin və ailə üzvlərinin sağlamlığı naminə onlarla aparılmış təbliğat işlərinə tam məsuliyyətlə əməl etmələri tövsiyə olunur.

Rayonda xüsusi karantin rejiminin tələblərini pozan şəxslərə də təsadüf edilir. Onlar barəsində zəruri tədbirlər görülür. Xəbərdarlıq olunmaqla yanaşı, onlardan bəziləri cərimə edilir, həmçinin inzibati məsuliyyətə cəlb olunurlar.

Rayonda, eyni zamanda, genişmiqyaslı dezinfeksiya işləri də həyata keçirilir. Əldə olunmuş dezinfeksiyaedici məhlullarla rayonun şəhər, qəsəbə və bütün kənd ərazilərində yollar, çoxmənzilli binalar, qeyri-yaşayış obyektləri, həyətlər, fərdi yaşayış evləri mütəmadi şəkildə dezinfeksiya olunur. Bu işlərin həyata keçirilməsi üçün rayona 100-dən çox çiləyici əl aparatları gətirilmiş, kəndlərdə yolların dezinfeksiyası üçün kənd təsərrüfatı texnikaları çiləyici kimi bu işlərə cəlb olunmuşdur.

Onu da qeyd edək ki, koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə ölkədə xüsusi karantin rejimi elan olunsa da, rayonda əhalinin əhvali-ruhiyyəsi yüksəkdir və mövsümlə əlaqədar insanlar kənd təsərrüfatı işləri ilə də məşğul olurlar. Rayonda taxıl sahələrinə gübrə verilmiş, pambıq əkininə hazırlıq işləri yekunlaşaraq, artıq çiyid səpininə başlanmışdır. Belə ki, ilk səpin rayonun Pərioğlular kəndində həyata keçirilib. Hava şəraiti ilə əlaqədar səpində fasilə yaransa da, yaxın günlərdə kütləvi səpin işlərinə başlanılması planlaşdırılır.

***Lazım QULİYEV,***
***“Azərbaycan”***

# Aztəminatlı ailələr diqqət mərkəzindədirlər

Füzuli rayonunda Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və tövsiyələrinə uyğun olaraq, koronavirus (COVID-19) infeksiyasının geniş yayılmasının qarşısının alınması, xüsusi karantin rejiminin tələblərinə ciddi əməl olunması məqsədilə qabaqlayıcı tədbirlər həyata keçirilir, maarifləndirmə işləri aparılır.





Rayon İcra Hakimiyyəti tərəfindən rayonun müxtəlif yaşayış məntəqələrində tənha yaşayan, yaşı 65-dən yuxarı olan vətəndaşların siyahısı hazırlanıb, onlara vaxtaşırı olaraq ərzaq yardımı verilir və digər kömək göstərilir. Həftəsonu Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev 1, 3, 4 Qayıdış qəsəbələrində olmuş, həmin yaşayış məntəqələrində yaşayan yaşı 65-dən yuxarı olan şəxslərə, o cümlədən imtiyazlı və aztəminatlı ailələrə baş çəkərək onlara ərzaq bağlamaları və tibbi ləvazimatlar çatdırmışdır.

Ahıl vətəndaşlar və imtiyazlı ailələr onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə və Birinci vitse-prezidentə minnətdarlıqlarını bildirmişlər.

Rayon icra hakimiyyətinin başçısı qəsəbələrdə xüsusi karantin rejiminin tələblərinə riayət olunmasının monitorinqini də aparmış, insanlara karantin rejiminin tələblərinə ciddi riayət etmələrini, özlərinin və ailələrinin sağlamlığı üçün milli həmrəylik nümayiş etdirərək evdə qalmalarını tövsiyə etmişdir.

Koronavirus epidemiyasının geniş yayılmasının qarşısının alınması məqsədilə rayon icra hakimiyyətinin, inzibati ərazi dairəsi üzrə nümayəndəliklərindən, bələdiyyələrin əməkdaşlarından, yerli könüllülərdən və ictimaiyyət fəallarından təşkil olunan mobil qrupların fəaliyyəti daha da gücləndirilmişdir.

Rayonun bütün yaşayış məntəqələrində koronavirus infeksiyasına qarşı mütəmadi dezinfeksiya işləri aparılır, virusdan müdafiə olunmaq qaydalarını özündə əks etdirən xüsusi elanlar ailələrə çatdırılır, xüsusi səsgücləndiricilər vasitəsilə insanlara zərurət olmadıqda çölə çıxmamaları, şəxsi gigiyena qaydalarına ciddi riayət etmələri və evdə qalmaları izah edilir.

***L.QULİYEV,***
***“Azərbaycan”***

# İnsanlar koronavirus epidemiyasına qarşı görülən işləri yüksək qiymətləndirirlər

Bu gün dünya ölkələri, o cümlədən Azərbaycan çətin günlərini yaşayır. Dünyanı cənginə almış koronavirus epidemiyası hər birimizdə həyəcan yaradıb.

Belə bir çətin zamanda Azərbaycan dövlətinin, xüsusilə dövlət başçısının əhalinin bu təhlükəli virusdan qorunması üçün həyata keçirdiyi çoxsaylı tədbirlər, eləcə də insanlara “evdə qal!” çağırışı artıq müsbət nəticələrini verir. Nazirlər Kabineti yanında Operativ Qərargahın yaradılması və onun karantin rejimi barədə verdiyi qərarlar insanların ölüm gətirən bu virusdan xilas olmalarına xidmət edir. Nəticə isə göz qabağındadır. Respublikamızda həm yoluxma faizi, həm də ölüm halları minimum səviyyədədir.

Göründüyü kimi, bütün dünya ölkələrinin əhalisi kimi Azərbaycan sakinləri də sınaq qarşısındadır. Çünki koronavirus epidemiyasının geniş yayıldığı bir dövrdə yaşayırıq. Hər gün xarici ölkələrdə bu virusa yoluxanlar və ölənlər haqqında eşitdiyimiz məlumatlar bizi kədərləndirir. Lakin Azərbaycan xalqı əmindir ki, bu bəladan tezliklə xilas olacaqdır. Bunu Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü tədbirlər də deməyə əsas verir. Xalq çox arxayındır. Arxayındır ona görə ki, əhalinin bu virusdan qorunmasına ciddi nəzarət edilir.

Bütün dünyanın koronavirus təhlükəsi ilə üzləşdiyi bir vaxtda türkdilli xalqların daha sıx həmrəylik nümayiş etdirərək bu qlobal problemin mənfi təsirlərini azaltmaq üçün birgə səy göstərilməsi təşəbbüsü də məhz Prezident İlham Əliyevdən gəldi. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşünün keçirilməsi bu gün dünya ölkələrinin maraqları dairəsindədir. Zirvə görüşündə də koronavirus epidemiyasının qlobal bəla olduğu bir daha vurğulanmaqla, bu bəladan qurtulmaq üçün dünya ölkələrinin birgə mübarizəsinin vacibliyi vurğulandı.

Hər yerdə olduğu kimi, Gəncədə də ölkəmizdə koronavirus epidemiyasına qarşı həyata keçirilən tədbirlər yüksək qiymətləndirilir. Şəhər sakinləri dövlət başçısının hər bir çağırışına məmnuniyyətlə qoşularaq bu dəhşətli bəladan can qurtarmaq üçün dövlətin bütün tədbirlərini dəstəkləyir və ona əməl etməyə çalışırlar.

**Tofiq HÜSEYNOV:**

- Məlum olduğu kimi, dünya əhalisi koronavirus epidemiyası ilə sınağa çəkilib. Lakin hansı ölkənin bu sınaqdan necə çıxacağı sual altındadır. Hər gün telekanallardan inkişaf etmiş Avropa ölkələrində bu virusun törətdiyi ölüm halları barədə məlumatlar alırıq. Sevinirəm ki, bizim ölkəmizdə bu xəstəlik o qədər də geniş yayılmayıb. Çünki dövlət başçımız epidemiya başlayan kimi təcili tədbirlər gördü. Nəticədə itkilərimizin sayı cüzi rəqəmlərlə qeydə alınır.

Mənim 87 yaşım var. Belə bir ağır dövrdə ölkə başçımız biz ahılları da düşünür. Evdən bayıra çıxmamağımız üçün bizə hər cür dəstək göstərir. İstər məişət qayğılarımızın, istər gündəlik tələbatımızın ödənilməsi üçün tez-tez yanımıza gəlir, sorğu-sual edirlər. Hətta bir neçə dəfə ərzaq yardımı da gətiriblər. Sağ olsunlar. Bütün bu qayğı dövlət başçımız tərəfindən irəli gəlir. Odur ki, ona ahıllar adından minnətdarlığımı bildirirəm.

**Solmaz BAĞIROVA:**

- Koronavirus epidemiyasının tüğyan etdiyi bir vaxtda bizim ölkədə, o cümlədən Gəncədə elə bir gərginlik hiss etmirik. Çünki insanlar başa düşürlər ki, dövlətin qəbul etdiyi hər bir qanun əhalinin təhlükəsizliyi üçündür. Odur ki, evdə oturub, ailə qayğılarımızla məşğul oluruq. Lazım gəldikdə isə SMS vasitəsilə icazə alıb, şəhərə çıxır, ərzaq mağazalarına, apteklərə gedirik. Bu zaman həm qoruyucu əlcəklərdən, həm də tibbi maskalardan istifadə edirik.

Bir məsələni də deyim ki, əvvəllər tibbi maska çatışmazlığı ilə üzləşirdik. Sağ olsun prezidentimizi. Bu məsələni də həll etdi. Sumqayıtda açılan müəssisədə tibbi maska və digər dezinfeksiyaedici maddələrin istehsalı qaydaya salındı. İndi hansı apteke getsən, istənilən qədər bu ləvazimatları almaq mümkündür.

**Ayaz ƏLİYEV:**

- Biz bilirik ki, tarixin müxtəlif dövrlərində insanlar sınağa çəkilib. İndi də belə bir an gəlib. Dünya əhalisi olum və ya ölüm dilemması qarşısında qalıb. Belə bir çətin zamanda ölkə başçımızın həyata keçirdiyi tədbirlər Azərbaycan əhalisinin qorunmasını demək olar ki, təmin edir. İnsanlara “evdə qal!” çağırışı öz müsbət nəticələrini verir. Nazirlər Kabineti yanında Operativ Qərargahın yaradılması və onun karantin rejimi barədə verdiyi qərar hamımızın təhlükəsizliyini təmin edir. Nəticə göz qabağındadır. Ölkəmizdə həm yoluxma, həm də ölüm halları çox azdır. Prezidentin bu istiqamətdə həyata keçirdiyi digər tədbirlər də insanların bu epidemiyaya yoluxmasını xeyli azaltmışdır. Xüsusilə idarə və təşkilatların, eləcə də küçə və meydançaların, park və xiyabanların tez-tez dezinfeksiya edilməsi də bu sahədə aparılan mübarizədə müsbət nəticələr verir. Bütün bunlar isə o deməkdir ki, ölkə başçımız həmişə öz vətəndaşının yanındadır. O, əhalinin qayğısını çəkir və ona istənilən şəraiti yaradır. Vətəndaşlar isə bu qayğıya cavab olaraq verilən qərarlara hörmətlə yanaşmalıdırlar.

**Vüqar CƏFƏROV:**

- Hamımız yaxşı bilirik ki, koronavirus epidemiyası tarixin müxtəlif dövrlərində baş verən epidemiyalardan ən təhlükəlisidir. Allaha şükürlər olsun ki, Azərbaycanda bu təhlükə faciə həddinə çatmayıb. Çünki Prezident İlham Əliyev bu epidemiya başlayandan bütün lazımi tədbirlər görməklə əhalini qorudu. İndi özümüzü olduqca güvənli hiss edirik. Bilirik ki, prezidentimizin əli hər zaman bizim üstümüzdədir. Biz ona güvənməklə bu bəladan qurtaracağıq. Bunun üçün isə ölkəmizdə hər cür şərait yaradılıb. İstər xəstəxanaların və tibbi personalın hazırlığı, istərsə də yoluxmadan qorunmaq üçün lazım olan ləvazimatların bolluğu bunu deməyə əsas verir. Bununla bağlı operativlik isə hər zaman hiss olunur. Bu virusa yoluxma hiss olunan kimi tibb işçiləri operativlik nümayiş etdirərək həmin insan üçün karantin dövrü müəyyənləşdirirlər. Həyata keçirilən bu tədbirlər isə müsbət nəticələrini verir.

**Naməddin MƏMMƏDOV:**

- Koronavirusun törətdiyi fəsadlar hamıya yaxşı məlumdur. Onun insanlara yoluxması demək olar ki, acı fəsadlarla nəticələnir. Dövlət başçımızın dediyi kimi, ondan qorunmağın düzgün yolu evdə qalmaq, gigiyena qaydalarına ciddi əməl etməkdir. Ölkə başçısının bu çağırışlarını əldə rəhbər tutan insanlar ona əməl etməklə həyatlarını qoruyurlar. Lakin bəzi hallarda bu tələblərə və tövsiyələrə əməl etməyənlər də olur. Müxtəlif bəhanələrlə evdən çıxanlar bilməlidirlər ki, dövlət onların məişət qayğılarını öz üzərinə götürmüşdür. Bu yaxınlarda prezidentin sərəncamı ilə aztəminatlı ailələrə 190 manat birdəfəlik yardımın verilməsi buna misal ola bilər. Bu qayğı onu göstərir ki, daim xalqı düşünən, onun həyat səviyyəsini yüksəltmək üçün müxtəlif tədbirlər görən ölkə başçısı hər zaman öz vətəndaşının yanındadır və onun bütün problemlərinin vaxtında həll edilməsini dövlətin prioritet vəzifəsi hesab edir.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

# Səhiyyə işçilərinə hədiyyələr təqdim edilib



Bu gün bütün dünyada, eləcə də ölkəmizdə koronavirus pandemiyası ilə ciddi mübarizə tədbirləri həyata keçirilir. Bu infeksiyaya yoluxmuş insanların müalicəsi, karantinə alınmış şəxslərin müayinəsi, o cümlədən bütün əhalinin sağlamlığının təmin edilməsi məqsədilə Azərbaycanın peşəkar səhiyyə işçiləri səfərbər edilmişdir.

Səhiyyə işçiləri bu mübarizədə böyük qəhrəmanlıq və fədakarlıq göstərərək var gücü ilə çalışır, öz sağlamlıqlarını risk altına qoyaraq xəstələrə yardım göstərirlər. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev koronavirusla mübarizə aparan həkimlərin əməkhaqqının böyük miqdarda artırılması ilə bağlı göstəriş verib, həkimlərə öz rəğbət və minnətdarlığını ifadə edib.

Eyni zamanda bu günlərdə bir sıra dövlət və özəl qurumların koronavirusla mübarizə aparan həkimlərin əməyini müxtəlif hədiyyələr formasında qiymətləndirməsi, onlara hörmət və ehtiramlarını bu şəkildə nümayiş etdirməsinin şahidi oluruq.

Mənəvi Dəyərlərin Təbliği Fondu da koronavirus pandemiyası ilə bilavasitə mübarizə aparan həkimlərə mənəvi dəstək göstərmək, xalqımızın onların yanında olduğunu nümayiş etdirmək, qəhrəmanlarımızda ruh yüksəkliyi yaratmaq məqsədilə bir qrup səhiyyə işçisinə hədiyyələr təqdim edib.

***Xəyalə MURADLI,***
***“Azərbaycan”***

# Şəfqət, mərhəmət, səxavət həmişə əvəzsiz dəyərlərimiz olub

## COVID-19-la mübarizədə də bu keyfiyyətlər yaxın köməkçimizdir

*Əvvəli 1-ci səh.*

Azərbaycan dövlətinin qarşıya qoyduğu prioritetlərdən biri də əhalinin sağlamlığının qorunmasıdır. Son 16 ildə ölkədə 700-dən çox tibb müəssisəsinin tikilməsi və əsaslı təmir olunması bunun əyani təsdiqidir. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, Azərbaycanda əhali ildə bir dəfə Prezidentin tapşırığına əsasən pulsuz tibbi müayinədən keçirilir. Bu bəlkə də dünyada analoqu olmayan humanist bir addımdır.

Azərbaycanda insanların sağlamlığına, ömrünün uzanmasına müsbət təsir edən bir sıra digər amillər də var. Bunlar Azərbaycan ailəsinin ənənələri, milli-mənəvi dəyərlərimizdir. Xalqımız sevinənlə birlikdə fərəhlənmək, dərdi, hüzrü olanın kədərini bölmək kimi çox müsbət xüsusiyyətlərə malikdir. Maddi ehtiyacı olanlara əl tutmaq kimi alicənab hərəkət də insanları stresdən, bədbinlikdən qoruyur və onları yaşamağa sövq edir.

Ağsaqqalın, ağbirçəyin isə ailədə öz yeri var. Bizlər yaşa dolmuş ata-anaya, baba-nənəyə qayğını təkcə mənəvi borc kimi göstərmirik. Qocaların əziyyətini onları sevə-sevə, səmimiyyətlə, qəlbimizin istəyi ilə çəkirik.

Yeri gəlmişkən, son illərdə Azərbaycanda ölüm hallarının azalması, yaxud eyni səviyyədə qalması da məhz bu mühüm səbəblərdən qaynaqlanır.

COVID-19-la mübarizə apardığımız bu günlərdə könüllülərin evlərdə yaşlılara baş çəkməsi, ehtiyaclarını öyrənib onlara kömək əli uzatması milli-mənəvi dəyərlərimizin daha bir təsdiqidir.

Xalqımızın əsrlərin sınağından keçirdiyi bir inanc və inamı da var. Bu, ana öyüdünə, ana məsləhətinə qulaq asmağın xeyir gətirməsidir. Azərbaycan anası həmişə insanlara düzgün yol göstərib. Müdrik Azərbaycan qadınlarının çağırışı tarix boyu neçə davaya, qan-qadaya son qoyub.

Azərbaycanın Birinci vitse-prezidenti, birinci xanım Mehriban Əliyevanın koronavirusla bağlı xalqa müraciətlərini dinlədikcə, oxuduqca, insanları bu bəladan qorunmağa çağırışlarını eşitdikcə yenidən müdrik Azərbaycan anasının səsini eşidirik: “Mən sizə bir övlad, bir həyat yoldaşı, bir ana və nənə olaraq müraciət edirəm! Qəlbimin dərinliklərindən gələn və hər birinizə ünvanlanan bu sözlərimi eşidib məni anlayacağınıza ümid edirəm! Xahiş edirəm, bunu mütləq zərurət və vəzifəniz kimi qəbul edin. Növbəti 20 gün ərzində hamı evdə qalmalıdır. Ailələrinizlə birlikdə. Xahiş edirəm, vacib zərurət olmadan evlərinizi tərk etməyin!”

Mehriban xanım, eyni zamanda, bildirmişdir ki, özünütəcridə əməl etmək bu günlərdə xalqın sağlamlığı, rahatlığı naminə iş başında olanlara ən gözəl minnətdarlıqdır: “Minlərlə soydaşımız iş başındadır və əllərindən gələni edirlər ki, vətəndaşlarımızın əksəriyyəti özlərini qoruya bilsin, evdə qalsın və karantin rejiminə əməl etsin. Bu gün koronavirus epidemiyası ilə mübarizədə ön cəbhədə olanlara ən gözəl minnətdarlıq özünütəcrid rejiminə riayət etməkdir. Biz bu qaydalara nə qədər ciddi və səmərəli riayət etsək, epidemiya ilə mübarizə aparan qardaş və bacılarımız adi həyat tərzinə və öz ailələrinin yanına bir o qədər tez qayıda bilər”.

Bu, hörmətli Mehriban xanımın koronavirusla bağlı xalqa birinci müraciəti deyildi. Bundan əvvəlki müraciətində də Mehriban xanım Əliyeva hörmətlə, səmimiyyətlə üzünü xalqa tutmuş, birlikdə bu müdhiş bəlaya qalib gələcəyimizə inamını ifadə etmişdi.

Bəli, biz birlikdə güclüyük!

Koronavirus pandemiyası ilə əlaqədar ölkədə xüsusi karantin rejiminin tətbiq olunduğu müddətdə talassemiya və hemofiliya, eləcə də leykoz xəstəliyindən əziyyət çəkən uşaqlar üçün qan ehtiyatı azlığı yaranmışdı. Bu da diqqətdən yayınmadı. Heydər Əliyev Fondu və Heydər Əliyev Mərkəzinin əməkdaşları qanvermə aksiyasında iştirak etdilər.

Birinci vitse-prezident Mehriban Əliyeva “Facebook” səhifəsində bununla əlaqədar paylaşım etmişdir: “İrsi qan xəstəliklərindən, xüsusilə də talassemiyadan əziyyət çəkən insanlara dəstək məqsədilə Milli Hematologiya və Transfiziologiya Mərkəzinin Qan Bankı tərəfindən keçirilmiş qanvermə aksiyasında könüllü olaraq iştirak edən Heydər Əliyev Fondunun və Heydər Əliyev Mərkəzinin əməkdaşlarına təşəkkürümü bildirirəm. Siz bu nəcib əməlinizlə bir insan həyatının xilaskarı olursunuz. Bu, ən yüksək qiymətə layiqdir! Əminəm ki, sizin təşəbbüsünüz bu məsələyə laqeyd yanaşmayan və ölkəmizin yaxşılıq etməyə hazır olan bütün vətəndaşları tərəfindən dəstəklənəcəkdir!”

***Flora SADIQLI,***
***“Azərbaycan”***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## ARDNF-nin investisiya portfelinin 80 faizdən çoxu sabit gəlirli qiymətli kağızlar və qızıldan ibarətdir

Son dövrlər baş verən məlum hadisələr Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) fəaliyyətindən də yan keçməmiş və bu səbəbdən ictimaiyyətdə bir sıra suallar yaranmışdır. Bunu nəzərə alan ARDNF həmin suallara aydınlıq gətirmişdir.



### Bu aktivlər isə böhran dövrlərində daha etibarlı alətlər hesab olunur

Cari ilin yanvar-mart ayları üzrə fondun gəlirləri və xərcləri barədə məlumat verən mənbə bildirmişdir ki, ARDNF-nin göstərilən müddət ərzindəki xərcləri illik xərclərin 40 faizi səviyyəsində icra olunmuşdur. "Xərclərin ilin sonuna kimi mövcud dinamika ilə artması gözlənilirmi" sualına fonddan belə cavab verilmişdir: "ARDNF-nin 2020-ci il üzrə büdcəsi təsdiq edilərkən büdcədə xam neftin bir barel üzrə qiyməti 55 ABŞ dolları səviyyəsində götürülmüş və buna uyğun olaraq fondun gəlirləri 12 milyard 384,1 milyon manat (7 milyard 284,8 milyon ABŞ dolları) və xərcləri 11 milyard 589,9 milyon manat (6 milyard 817,6 milyon ABŞ dolları) səviyyəsində proqnozlaşdırılmışdır.

Cari ilin yanvar-mart ayları üzrə neft və qazın satışı ilə bağlı ARDNF-yə ümumilikdə 2 milyard 219 milyon, o cümlədən mənfəət nefti və qazının satışından 1 milyard 763 milyon ABŞ dolları həcmində vəsait daxil olmuşdur və neftin xalis orta qiyməti 59 ABŞ dolları təşkil etmişdir. Bununla yanaşı, həmin dövr üzrə ARDNF-nin xərcləri 2 milyard 763 milyon ABŞ dolları (4 milyard 697 milyon manat) olmuşdur. Xərclərin cari ilin birinci rübündə çox olması həmin dövr ərzində valyuta bazarında tələbin əvvəlki dövrlərə nisbətən daha artıq olması səbəbindən dövlət büdcəsinə transfertlərin daha tez yerinə yetirilməsi ilə izah edilə bilər. Lakin ARDNF-nin 2020-ci il üzrə büdcə xərclərinin büdcədə təsdiq olunan səviyyədə icra olunacağı proqnozlaşdırılır və bu çərçivədə də təxminən 4 milyard ABŞ dolları həcmində vəsaitin hərraclar vasitəsilə satışa çıxarılacağı gözlənilir".

Bu vəziyyətin ARDNF-nin investisiya portfelinə nə dərəcədə təsir edəcəyi sualına isə fonddan belə cavab verilmişdir: "Fondun büdcə proqnozları illik əsasda təsdiq edilir və nəzərdə tutulan büdcə ili üzrə icra səviyyəsi həmin ilin müəyyən dövrlərində müxtəlif olur. Belə ki, il ərzində həm dövlət büdcəsinin tələbindən, həm də valyuta bazarında tələbin dəyişməsindən asılı olaraq öhdəliklərin aylar üzrə eyni həcmdə icra edilməməsi mümkündür. Bununla yanaşı, xam neftin dünya bazarındakı qiymətlərindən asılı olaraq il ərzində müxtəlif dövrlərdə fondun gəlirlərinin dinamikası fərqli templə arta bilər. Beləliklə, neftin qiymət faktorundan və xərclərin müxtəlif dövrlərdə fərqli icra edilməsindən asılı olaraq ARDNF-nin aktivlərinin il ərzində hansısa dövrün sonuna ya artması, ya da azalması mümkündür. Lakin bundan asılı olmayaraq, fondun xərcləri üçün illik yuxarı hədd müəyyən edildiyindən fərqli aylarda icra fərqli olsa da, ARDNF-nin illik büdcə öhdəliyi dövlət büdcəsində təsdiq edilən səviyyədən yüksək ola bilməz. Bir sözlə, ARDNF-nin vəsaitlərindən əldə olunan gəlirləri istisna etsək, fondun vəsaitlərinin hər ilin sonuna olan səviyyəsinə təsir edən tək amil neftin dünya bazarlarındakı qiymət tempidir.

Məlum olduğu kimi, hər il ARDNF-dən dövlət büdcəsinə müəyyən edilmiş həcmdə transfertlər həyata keçirilir və fond da, öz növbəsində, bu xərcləri qarşılamaq üçün ən azı həmin məbləğ qədər çox qısa müddətli aktivləri investisiya portfelində saxlayır. Bununla yanaşı, ARDNF-nin vəsaitləri həm də ölkə iqtisadiyyatı üçün xarici şoklar zamanı "təhlükəsizlik yastığı" rolunu oynayır və dövlət büdcəsində yarana biləcək fiskal kəsirin örtülməsində də istifadə olunur. Bunu nəzərə alaraq ARDNF-nin vəsaitlərində heç bir zərərə səbəb olmadan dərhal istifadə edilə biləcək yüksək keyfiyyətli likvid alətlər önəmli hissəni təşkil edir. Belə ki, fondun aktivlərinin 70 faizə qədərini borc öhdəlikləri və pul bazarları alətləri portfeli təşkil edir. Mart ayının sonuna yalnız ABŞ dollarında ifadə olunan aktivlərdə gəlir əldə edilən nağd vəsaitlərin həcmi təxminən 4 milyard dollara bərabərdir. Eyni zamanda, təkcə ABŞ dollarında ifadə olunan istiqraz portfelində yalnız əsas məbləğin qaytarılmasına görə təqribən 2,4 milyard dollar həcmində nağd vəsait ARDNF-yə daxil olacaqdır. Bir daha qeyd edirik ki, ARDNF-nin öhdəliklərinin yerinə yetirilməsi istiqamətində investisiya portfelinə daxil edilən aktivlərin heç bir zamansız və məcburi satışına ehtiyac yoxdur".

Dünya maliyyə bazarlarındakı dalğalanmaların ARDNF-nin portfelinə təsirinə gəldikdə isə fonddan bildirmişlər ki, bu gün dünya iqtisadiyyatında, eləcə də beynəlxalq maliyyə bazarlarında baş verənlər fondun daxilolmalarına və investisiya portfelinə təsirsiz ötüşmür: "Bu gün ARDNF-nin investisiya portfelinin 80 faizdən çoxu yüksək likvid və daha az qiymət dəyişkənliyi ilə xarakterizə olunan sabit gəlirli qiymətli kağızlar və qızıldan ibarətdir. Bu aktivlər isə böhran dövrlərində daha etibarlı alətlər hesab olunurlar. Bir daha qeyd edirik ki, beynəlxalq maliyyə bazarları dünya iqtisadiyyatının güzgüsüdür. Əgər bu gün bütün dünyada insanlar daha az məhsul və xidmətlər istehlak, şirkətlər bunun əvəzində öz istehsal imkanlarından daha az istifadə edirlərsə, bu o deməkdir ki, onların gəlirləri azalır və nəticədə bu, onların birjada kotirovka olunan səhmlərinin qiymətinə təsir edir. Həmin səhmlər də bu gün demək olar ki, bütün institusional investorların portfellərinin tərkib hissəsidir. Digər suveren fondlar kimi, ARDNF-nin də investisiya portfelində bu dalğalanmalar qısamüddətli qiymət dəyişkənliyindən yaranan realizə edilməmiş müvəqqəti zərər kimi öz əksini tapacaq və fondun informasiya siyasətinə uyğun ictimaiyyətə çatdırılacaqdır".

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***

## Energetika Nazirliyi "OPEC +" ölkələri nazirlərinin qərarını yüksək qiymətləndirir

"OPEC +" ölkələri nazirlərinin X iclasında neft istehsalçıları, istehlakçıları, bütövlükdə dünya iqtisadiyyatı üçün tarixi bir razılaşma əldə olundu. Bu format çərçivəsində ilk dəfə olaraq iki illik müddəti və böyük istehsal həcmlərinin ixtisarını nəzərdə tutan və qlobal dəstəklə müşayiət olunan bir qərar qəbul edildi.

"OPEC +" formatında atılan bu addımlar neft bazarına bir neçə istiqamətdə dəstək verir. Əvvəla, hasilatın azaldılması ilə bağlı qərarın mayın 1-dən icrası qarşısında bütün maneələr aradan qalxmış olur. İkincisi, bu qərarın əhəmiyyəti "OPEC +" hesabına yalnız may-iyun aylarında gündəlik hasilatın 9,7 mln barel həcmində azaldılması ilə məhdudlaşmır. Eyni zamanda Səudiyyə Ərəbistanı, Küveyt və BƏƏ tərəfindən aprel ayında planlaşdırılan gündəlik 2,7 mln barel həcmində neft istehsal edilməyəcək. Bundan başqa, bu qərar "OPEC +" formatından kənar ölkələrin də hasilatı azaltmalarını təşviq edir və ilk dəfə olaraq digər iri neft istehsalçıları da bu prosesə qoşulurlar. ABŞ-ın Meksikanın öhdəliyinin 300 min barelini öz üzərinə götürməsi buna bir nümunədir. ABŞ, Kanada, İndoneziya, Norveç və Braziliya kimi iri neft istehsalçılarının "OPEC +" ölkələri ilə həmrəylik nümayiş etdirərək, gündəlik neft istehsalını 4-5 mln barel həcmində könüllü şəkildə azaldacaqları nəzərdə tutulur. Beləliklə, İran, Venesuela və Liviyada gündəlik xam neft hasilatının 2,8 mln. barel azalacağını da nəzərə alsaq, "OPEC +" ilə başlayan və digər ölkələrlə dəstəklənən təşəbbüs çərçivəsində mayın 1-dən etibarən dünya neft bazarına ümumilikdə gündəlik 20 mln barel az neft daxil olacaq. Bu isə koronavirus pandemiyasının neftə qlobal tələbatı kəskin zəiflətdiyi bir vəziyyətdə neft bazarına və neftin qiymət sabitliyinə çox böyük bir töhfədir.

Neft bazarında tarazlığın yaradılmasında ilkin vaxtlardan mühüm rol oynayan Azərbaycan isə bu dəfə də neft ölkələri arasında uzlaşmanın təmin edilməsində səylərini əsirgəmədi. Azərbaycanın bu prosesə töhfəsi dünənki iclasda Səudiyyə Ərəbistanının Energetika naziri şahzadə Əbdül Əziz bin Salman tərəfindən yüksək qiymətləndirildi. O, ölkələrə təşəkkür edərkən, həm 6 mart, həm də 9 aprel tarixlərində keçirilən iclaslar zamanı nümayiş etdirdiyi mövqeyinə, məsləhətləşmələr prosesində fəal roluna görə Azərbaycanın adını xüsusilə qeyd etdi və minnətdarlığını bildirdi.

Azərbaycan üzərinə götürdüyü öhdəlikləri may ayından etibarən yerinə yetirməklə neft bazarının balanslaşdırılması prosesinə töhfəsini davam etdirəcək.

"Əməkdaşlıq Bəyannaməsi"nə edilmiş düzəlişə əsasən "OPEC +" ölkələri üzrə gündəlik neft istehsalı ilə bağlı kvotalar may-iyun aylarında 9,7 mln. barel, iyulun 1-dən ilin sonuna kimi 7,7 mln. barel və 2021-ci ilin yanvarından 2022-ci ilin aprelinədək isə 5,8 mln barel həcmində qərarlaşır.

## Dövlət Gömrük Komitəsinin mərkəzi aparatı aztəminatlı ailələrə yardım edib



Ölkəmizdə koronavirus (COVID-19) infeksiyası ilə mübarizədə ilk gündən etibarən ön sıralarda yer alan gömrükçülər həyata keçirilən zəruri və təxirəsalınmaz tədbirlərin uğurla reallaşdırılması üçün bütün səylərini səfərbər ediblər.

Dövlət Gömrük Komitəsinin mərkəzi aparatı da bu məqsədlə aztəminatlı ailələrə və yaşı 65-dən yuxarı olan şəxslərə yardım aksiyasına növbəti töhfəsini verib.

Könüllü gömrükçülərin iştirakı ilə 70-dən çox ailəyə baş çəkilib, onlara gündəlik qida məhsullarından ibarət ərzaq sovqatı paylanılıb, ailələrlə profilaktik söhbətlər aparılıb, onlara xüsusi karantin rejimi dövründə evdə qalmaları tövsiyə edilib.

Ailələr isə öz növbəsində onlara göstərilən diqqət və qayğıya görə Dövlət Gömrük Komitəsinin kollektivinə minnətdarlıqlarını bildiriblər.

## Daha 20 min şəxs üçün birdəfəlik ödəniş köçürülüb



İşsiz kimi qeydiyyata alınan şəxslərdən daha 20 min şəxsin birdəfəlik ödəmə ilə təmin olunması üçün vəsait bank filiallarına və poçt şöbələrinə köçürüldü.

Onların müraciət edərkən qeyd etdikləri telefon nömrəsinə bu barədə SMS göndəriləcək. Mesajı aldıqdan sonra evdən çıxmaq üçün müvafiq qaydada icazə alaraq SMS-də "Azərpoçt" MMC qeyd edildiyi halda - istənilən poçt şöbəsinə, bank göstərildiyi halda isə - həmin bankın istənilən filialına şəxsiyyət vəsiqəsi ilə müraciət edib vəsaitlərini ala bilərlər.

Ödəmələrin verilməsi gündəlik davam edir.

Aprelin 9-dan etibarən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən artıq 55 min işsiz üçün birdəfəlik ödənişin aidiyyəti üzrə köçürülməsi təmin edilib.

## Əmək müqavilələrinin sayı artır




Özəl sektorda işçilərin əsassız yerə işdən çıxarılmasına, ixtisarına yol verilməməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən elektron sistem üzərindən gündəlik nəzarət həyata keçirilir.

Həmçinin əvvəlcədən işəgötürənlərə müvafiq bildiriş-xəbərdarlıq göndərilib. Bu işlər qeyri-dövlət sektorunda çalışan 710 min işçini əhatə edir.

Aparılan işlərin müsbət nəticəsi kimi özəl sektorda nəinki əmək müqavilələrinin sayında azalma baş verməyib, əksinə, onların sayında artım dinamikası özünü göstərib.

2020-ci ilin 1 aprel tarixinə qeyri-dövlət sektoru üzrə əmək müqavilələrinin sayı 664 119 olubsa, 12 aprel tarixinə bu göstərici 710 967-yə çatıb.

Beləliklə, əmək müqavilələrinin sayında bu ilin aprelin 1-dən 46 848, yanvarın 1-dən isə 69 478 müqavilə artımı baş verib.

## Bu gündən əlavə 50 min ödənişli ictimai iş yerinin yaradılmasına başlanır

Pandemiya ilə əlaqədar iş yerlərinin qorunması tədbirləri ilə yanaşı, əhalinin məşğulluq imkanlarının artırılması prioritet fəaliyyət istiqamətlərindən biridir.




Bu məqsədlə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin DOST İş Mərkəzi vasitəsilə aprel-may ayları üzrə əlavə 50 min ödənişli ictimai iş yerinin yaradılması nəzərdə tutulub.

Əlavə ictimai iş yerlərinin rayon və şəhərlər üzrə bölgüsü təsdiqlənib, prosedur və mexanizmlər hazırlanaraq yerlərə göndərilib.

Bu gündən artıq həmin ictimai iş yerlərinin yaradılmasına başlanacaq. İctimai iş yerləri əsasən dezinfeksiya, sosial xidmətlər və s. istiqamətləri əhatə edəcək.

## Məhsuldarlığın yüksəldilməsinin müasir üsulu - yeni texnika və texnologiyaların tətbiqi

Dünyada kənd təsərrüfatında məhsuldarlığın artırılmasında yeni dövr başlanıb. Bu sahədə müasir texnika və yüksək texnologiyalardan geniş istifadə olunur. Başqa sözlə, aqrar sektorda sənayenin nailiyyətləri təbliğ edilir. Məqsəd az torpaq sahəsindən istifadə etməklə yüksək məhsul götürməkdir. Eyni zamanda bu yolla torpağın münbitliyinə və ekoloji sağlamlığın qorunmasına da diqqət yetirilir.

Niderland (Hollandiya) torpaq azlığına və qeyri-münbit iqliminə baxmayaraq, kənd təsərrüfatı məhsulunun istehsalına görə dünyada ABŞ-dan sonra ikinci yerdə qərarlaşıb. Niderland "möcüzə"sinin tək səbəbi bu sahədə yüksək texnika və texnologiyalardan istifadə etməsidir. Həmin ölkədə aqrar elmin inkişafına da xüsusi diqqət yetirilir. Beləliklə, aqrar elmin və yüksək texnologiyaların birliyi bu ölkəyə dünya üzrə yüksək məhsuldarlığa nail olmaq imkanı yaradıb.

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə qeyd edib ki, yüksək məhsuldarlığa nail olmaq üçün kənd təsərrüfatında müasir texnika və texnologiyaların tətbiqi vacibdir. Dövlət başçısının təşəbbüsü ilə son illər inkişaf etmiş ölkələrdən istehsal olunan avadanlıqlar alınaraq ölkəmizə gətirilir. Hazırda bir çox sahələrdə həmin texnika və texnologiyalardan səmərəli istifadə olunur. Bunun nəticəsində kənd təsərrüfatının bir çox sahələrində yüksək məhsuldarlıq əldə olunub. Məsələn, adi fermer təsərrüfatlarında taxılın məhsuldarlığı 30 sentner olduğu halda, müasir texnologiyalardan istifadə edən



iri fermer təsərrüfatlarında 50-60 sentner civarındadır. Bu fakt onu göstərir ki, eyni torpaq şəraitində müasir avadanlıqlardan istifadə etməklə, yüksək məhsuldarlığa nail olmaq mümkündür.

Prezident İlham Əliyev aqrar sektorda müasir texnika və texnologiyaların tətbiqinin əhəmiyyətini vurğulayaraq demişdir: "Biz kənd təsərrüfatında islahatları dərinləşdirməliyik. Kənd təsərrüfatı elmi əsaslarla inkişaf etməlidir. Müasir texnologiyalar, yanaşmalar tətbiq olunmalıdır. Biz ərzaq təhlükəsizliyi ilə bağlı bundan sonra da mütləq ciddi işlər aparmalıyıq, bu, prioritet məsələdir... Təkcə 2018-ci ildə 5800 texnika alınıb. Əvvəlki illərdə bəzən 9 min, 8 min texnika alınıb. Biz texniki parkımızı böyük dərəcədə təkmilləşdirmişik. Ən qabaqcıl şirkətlərin texnikası alınır, istər taxılçılıqda, istər pambıqçılıqda, istərsə də digər sahələrdə bundan səmərəli istifadə edirik".

Bu yaxınlarda üzümçülükdə innovativ texnika və texnologiyalardan istifadə olunmasına dair keçirilən tədbirin məqsədi də qeyd etdiyimiz faktorla bağlıdır. Şamaxı rayonunda Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun keçirdiyi tədbirin də məqsədi bu sahədə fermerlərə kömək göstərməkdir. bu yollar fermerləri aqrar elmi ilə daha yaxından tanış etməklə onlara mütəxəssis məsləhəti verməkdir.

Mütəxəssislər bildirdilər ki, bu sahədə yüksək məhsuldarlığa nail olmaq üçün üzümçülüyün mexanikləşdirilməsi, üzümün becərilməsi üzrə kompleks işlərin maşın və avadanlıqların köməyi ilə yerinə yetirilməsi vacibdir. Vurğulandı ki, son dövrlər üzümçülükdə texnoloji proseslərin mexanikləşdirilməsi istiqamətində mütərəqqi dəyişikliklər baş verib. Üzümçülükdə istifadə olunan texnika təyinatına görə çoxnövlüyü ilə seçilir. Bu, intensiv üzümçülükdə texnologiyalarla yerinə yetirilən texnoloji əməliyyatlarla əlaqədardır.

Mexanikləşdirilmə işin səmərəsini dəfələrlə artırır, keyfiyyətini və dəqiqliyini yüksəldir. Müasir texnika və texnologiyalardan istifadə etməklə üzüm bağlarında aparılan əməliyyatların əksəriyyətini mexanikləşdirmək mümkündür. Həmin sahədə dünyada böyük təcrübə toplanılıb. Bu, əl əməyini azaltmaqla məhsuldarlığın artmasına səbəb olur. Mövcud çoxfunksiyalı aparatlardan yararlanmaqla əl əməyindən istifadə azalır, məhsuldarlıq artır. Nəticədə məhsul istehsalına çəkilən xərclərin maya dəyəri azalır, gəlir yüksəlir.

Aqrar Elm və İnnovasiya Mərkəzinin Əkinçilik Elmi-Tədqiqat İnstitutunun təşkilatçılığı ilə Ağdaş rayonunda "Yem istehsalında mövcud problemlər və perspektivlər" mövzusunda keçirilən elmi-praktik seminarın məqsədi də bu sahədə müasir texnika və texnologiyalardan istifadə ilə fermerləri tanış etmək idi. Tədbirdə praktiki olaraq yem istehsalının texnoloji prosesi yaxından izlənilib, yem bitkilərinin əkin istiqamətinin gücləndirilməsi müzakirə edilib, cins heyvanların bəsləmə qaydaları, rasionların düzgün təşkili istiqamətində elmi-tədqiqat institutu ilə fermerlərin əməkdaşlıq etməsi barədə razılıq əldə olunub.

Alimlərin və fermerlərin birgə apardıqları müzakirələrdə seleksiyanın elmi əsaslarını inkişaf etdirməklə mədəni və təbii floranın genetik ehtiyatları əsasında yüksək məhsuldar və stres amillərə davamlı yeni bitki sortlarının və toxumların yaradılması barədə təkliflər irəli sürülüb. Həmçinin əkinçilik mədəniyyətinin yüksəldilməsi, yem istehsalının maddi-texniki bazasının möhkəmləndirilməsi, yüksək məhsuldar bitki və sortların istifadəsi ilə məhsuldarlığın artırılması ilə bağlı fikirlər səsləndirilib.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

"Nəriman Nərimanovun bədii yaradıcılığı ilə ictimai və siyasi fəaliyyəti arasında üzvi bağlılıq vardır. Onun ömrünün mühüm hissəsi qəlbən inandığı və həyatının başlıca vəzifəsi sayaraq müqəddəs amala çevirdiyi xalq işi uğrunda ardıcıl mübarizələrdə keçmişdir. Siyasi çarpışmaların daha da gərginləşdirdiyi son dərəcə mürəkkəb şəraitə baxmayaraq, Nəriman Nərimanov milli maraqları daim üstün tutan rəhbər kimi taleyüklü problemlərə münasibətdə xalqımızın mənafeyini imkanlarının ən son həddinədək müdafiə etmişdir. O, keçmişimizin mədəni sərvətlərinin mühafizəsinə, ana dilinin saflığı məsələlərinə xüsusi diqqət yetirmiş, elmin, maarifin və mədəniyyətin inkişafı yolunda var qüvvəsi ilə çalışmış, dövrün milli məfkurə daşıyıcısı olan şəxsiyyətlərinə ehtiram və qayğı ilə yanaşmışdır. Nəriman Nərimanovun XX əsr Azərbaycan tarixində əhəmiyyətli iz qoymuş ictimai-siyasi fəaliyyəti məhz Ulu Öndər Heydər Əliyevin nüfuzu və qətiyyəti sayəsində layiqli qiymətini alaraq bütöv şəkildə doğma xalqa çatdırılmışdır. Nəriman Nərimanovun 100 və 125 illik yubileylərinin təntənə ilə qeyd edilməsinin, Bakıda əzəmətli abidəsinin ucaldılmasının və ev-muzeyinin yaradılmasının, həmçinin ölkəmizin hüdudlarından kənarda xatirəsinin əbədiləşdirilməsinin təşəbbüskarı Ümummilli Lider Heydər Əliyev olmuşdur"

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Nəriman Nərimanovun 150 illik yubileyinin qeyd edilməsi haqqında" 14 fevral 2020-ci il tarixli sərəncamından***



# Heydər Əliyev:

# "Nəriman Nərimanov bu gün də bizimlədir"

Azərbaycanın görkəmli yazıçısı, dövlət və ictimai-siyasi xadimi Nəriman Nərimanovun anadan olmasının 150 illiyi tamam olur. AZƏRTAC bu münasibətlə filologiya elmləri doktoru, professor Teymur Əhmədovun "Heydər Əliyev: "Nəriman Nərimanov bu gün də bizimlədir" sərlövhəli məqaləsini təqdim edir.

Nəriman Nərimanov ömrünü müsəlman Şərqinin azadlığı və xalq işi uğrunda mübarizəyə həsr etmişdi.

1920-ci ildə Nəriman Nərimanov Moskvada Zaqafqaziya müsəlmanları şöbəsinin müdiri, bir neçə aydan sonra isə RSFSR Xalq milli işlər komissarının müavini vəzifəsində çalışarkən dövlət başçısı V.İ.Lenin onun sözlərinə xüsusi qayğı və həssaslıqla yanaşırdı. Çünki N.Nərimanovun ehtiyatlı məsləhətlərində və xəbərdarlıqlarında Şərq xalqlarının böyük dərdçəkəninin, beynəlmiləlçi ictimai xadiminin humanizmini görür, onun sözlərinə etimadla yanaşırdı.

Nəriman Nərimanov öz odlu qəlbini məşələ çevirmək, məzlum Şərq xalqlarını əsarətdən xilas etmək arzusu ilə yaşayırdı. Heç təsadüfi deyildir ki, ölümündən bir qədər əvvəl o, Şərqə müraciətlə yazırdı: "Ey Şərq, ey bəşəriyyət əzəli, sənin yolunda yansam, əzablara düşsəm də idealımdan dönən deyiləm. Hamı şahiddir ki, sənin yolunda ömrümü sərf etdim, hərgah can verən bir loğman tapılsaydı, həyatımı 30 il də sənə verərdim".

Sovet hökuməti ilə diplomatik əlaqə yaradan ilk xarici dövlətin, Əfqanıstanın səfirini Moskvada N.Nərimanov qarşılamış, sovet diplomatiyası tarixində ilk dəfə ona Azərbaycan dilində müraciət edərək salamlamışdı. Nəriman Nərimanov bildirmişdir ki, "onun azərbaycanca nitq deməsi Sovet Rusiyasında bütün millətlərin bərabər və azad olmasına bir sübutdur". İ.V.Stalin Hindistan elçisi, müsəlman professor Prasadla danışıqlar aparmağı da N.Nərimanova tapşırmışdı.

Gənc Sovet Rusiyası ilə Yaxın Şərq ölkələri arasında diplomatik əlaqənin yaradılması, Rusiya inqilabının və əhəmiyyətinin Şərq xalqlarına çatdırılması böyük inqilabi sayıqlıq, diplomatik hünər və ehtiyatlılıq tələb edirdi. N.Nərimanov bu vəzifələri görkəmli dövlət xadiminə xas olan bacarıqla yerinə yetirirdi. Onun İran, Türkiyə, Əfqanıstan, Hindistan, Misir və başqa Şərq ölkələri xalqlarına müraciətləri mühüm sənədlər idi. N.Nərimanov məsələlərin həllində Leninin müdrik məsləhətlərinə və göstərişlərinə əsaslanırdı.

1920-ci il aprel ayının 8-də KP Mərkəzi Komitəsinin qərarına əsasən Ümumqafqaz rəhbər partiya orqanı - Qafqaz bürosu yaradıldı. V.İ.Leninin təklifi ilə N.Nərimanov PK (b) P MK-nın Qafqaz Bürosu heyətinə daxil edildi.

Azərbaycan KP Mərkəzi Komitəsi 1920-ci il aprelin 27-də silahlı üsyana rəhbərlik etmək üçün Müvəqqəti Hərbi İnqilab Komitəsi yaratdı. N.Nərimanov qiyabi olaraq Müvəqqəti Hərbi İnqilab Komitəsinin sədri seçildi.

1920-ci ilin mayında Bakıda çətin şəraitdə işə başlayan N.Nərimanov V.İ.Leninə göndərdiyi teleqramında yazırdı:

"... Mənim şəxsimdə əhali Sovet Rusiyasını səmimiyyətlə alqışlayır və əmin olur ki, Sovet Rusiyası gənc müstəqil Sovet Azərbaycanına möhkəmlənməkdə kömək edəcəkdir".

N.Nərimanov müstəqil Sovet Azərbaycanında təcili həll olunacaq məsələlərdə V.İ.Leninin köməyinə arxalanır, teleqram, məktub və xüsusi kuryer vasitəsilə onunla sıx əlaqə saxlayırdı.

N.Nərimanov Azərbaycanda nümunəvi müstəqil dövlət quruculuğunun möhkəm təməlini qoymaqla, Şərqə pəncərə açmaq istiqamətində, çətinliklə də olsa, çox əhəmiyyətli işlər görürdü. Lakin V.İ.Leninin səhhətinin ağırlaşması, İ.V.Stalinin hakimiyyətə sahiblənməsi N.Nərimanovun böyük missiyanı həyata keçirməsinə, dövlətin siyasi kursunda dəyişikliyə ciddi təsir göstərdi.

Xalqların birliyi, həmrəyliyi, qarşılıqlı əməkdaşlığı, hüquq Bəyannaməsi və sairə haqqında qəbul olunmuş dövlət qərarları kağız üzərində qaldı. N.Nərimanov oğlu Nəcəfə məktubunda Kremldə hərc-mərclik, özbaşınalıq, didişmə yarandığından sovet hakimiyyətinin dağılacağından narahatlığını bildirirdi. Bu uzaqgörənlik gec də olsa baş verdi.

N.Nərimanova böyük missiyanı həyata keçirməyə imkan vermədilər. Ölümündən sonra Sovetlər Birliyində 70 il N.Nərimanovu doğma xalqına unutdurmağa çalışdılar.

* * *

Azərbaycan KP MK-nın I katibi Heydər Əliyevin öz çıxışlarında söylədiyi fikirləri xatırlatmaq istərdim:

"1970-ci ildə Nərimanovun anadan olmasının 100 illik ildönümünü qeyd etmək lazım idi. Lakin millətçi ermənilər Sov.İKP MK-ya məktublar yazaraq Nərimanovun bir millətçi olduğunu, bir çox xətalar elədiyini və 100 illik yubileyinin keçirilməsinin gərəksiz olduğunu söyləyirdilər. Nərimanovun heykəlini ucaldarkən nə əziyyətlər çəkdik".

1970-1972-ci illərdə Moskvaya göndərilən şikayət məktubları əsasında Moskvadan Bakıya yüzlərlə sorğu məktubları göndərilirdi. Akademik Cəmil Quliyev gecə-gündüz arxivlərdən sənədləri axtarıb tapır, dərhal Heydər Əliyevə təqdim edirdi. Hər gün Moskvaya Kremlə cavab məktubları göndərilirdi.

Heydər Əliyev yazırdı: "Brejnev və Suslovla bu barədə söhbət etdik, amma onlara Nərimanovla əlaqədar yanlış məlumat çatdırılmışdı. O zaman Azərbaycan Sov.İKP MK-nın Birinci katibi Heydər Əliyev həm də Sov.İKP Siyasi Bürosunun üzvlüyünə namizəd seçilmişdi. Ona görə də Sov.İKP-nin Mərkəzi Komitəsinin ən məxfi sənədləri arasında Sov.İKP(b) Siyasi Bürosunun 1923-cü il 15 noyabr tarixli iclasının "ən məxfi" qrifli qərarını tapıb üzə çıxarmışdı. Yaroslavskinin rəhbərliyi ilə Bakıya göndərilmiş yoxlama komissiyasının nəticələri və Nərimanovun ərizəsi əsasında Siyasi Büro qərar çıxarmışdı: 1) Münaqişə bitmiş hesab olunsun; 2) Nərimanov yoldaş Mərkəzi Komitənin etibarını bütünlüklə qazanmışdır; 3) Nərimanov yoldaşdan xahiş olunsun ki, istefa ərizəsini geri götürsün".

Bu mənəvi əzab-əziyyət, sarsıntı iki il çəkdi. Heydər Əliyev xalqın mənəvi köməyi ilə dirəniş göstərdi. Çox mübarizə apardı, iki il çarpışa-çarpışa istədiyinə nail oldu, Mərkəzi Komitənin Siyasi Bürosunda Nərimanovun anadan olmasının 100 illik yubileyinin 1972-ci ildə keçirilməsi qərara alındı.

1972-ci ildə Heydər Əliyev Nərimanovun heykəlinin açılışındakı çıxışında demişdir: "Nəriman Nərimanov bu gün də bizimlədir. O özünün nəhəng qaməti ilə burada, qocaman Xəzərin dalğaları üzərində ucalır, vuruşlarda və yaradıcı əməyi şöhrətini qazanmış Bakıda ucalır və tanınmaz dərəcədə dəyişilmiş respublikamızın düzlərinə elə bil iftixarla nəzər salır, xalqın səadəti uğrunda çarpışmış mərd mübarizlə görüşə gəlmiş zəhmətkeşlərin çoxmillətli dəstələrini diqqətlə gözdən keçirir".

Heydər Əliyev Rusiyada Nərimanovun adının əbədiləşdirilməsinə xüsusi diqqət yetirmişdir. Həştərxan vilayətinin Nərimanov şəhərində Nərimanovun heykəli ucaldılmışdır. Ulyanovski şəhərində Nərimanov prospektində (1977-ci ilin dekabrında) Nərimanovun abidəsinin açılışında izdihamlı mitinqdə Heydər Əliyev çıxış etmişdir. Həmin il Bakıda Nərimanovun xatirə muzeyi açılmışdır.

Heydər Əliyevin misilsiz xidmətlərindən biri də odur ki, sovet hakimiyyəti dövründə, millətçi-təmayülçü kimi əsası olmayan böhtanla kimliyi xalqdan gizlədilən, unudulmağa məhkum edilən Nəriman Nərimanova əbədiyaşarlıq, mənəvi ölməzlik verdi, onu xalqa qaytardı, tariximizdə boşluğu bərqərar etdi.

Beləliklə, vətənini, xalqını, tarixini sevən millətin qeyrətli vətəndaşları Heydər Əliyevin dahiyanə xidmətini minnətdarlıqla yad edirlər.

* * *

Mütəfəkkir yazıçı Cəlil Məmmədquluzadə nurani, ağsaqqal Molla Nəsrəddin əbasında, əlində əsa xalq arasında "Sizi deyib gəlmişəm" deyə öz həmvətənlərinə pənah gətirmişdi ki, Vətəni zülmətdən işıqlığa çıxarsın. XX yüzilliyin astanasında ictimai-siyasi aləmin yeni oyanış dövrü başlanmışdı. Bu inqilabi hərəkatın qüdrətli dalğaları gücləndiyi bir vaxtda "Molla Nəsrəddin" ədəbi-siyasi məcmuəsini, Cəlil Məmmədquluzadənin təbirincə desək, həyat özü, zamanın özü yaratmışdı. Və onun idealı da bu olmuşdu ki, Azərbaycan məmləkətində millət oyansın, inqilab ab-havasında öz torpağına sahib olsun, əkib-becərdiyindən özü bəhrələnsin. Həsən bəy Zərdabi, Nəriman Nərimanov, Məhəmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli, Əli bəy Hüseynzadə kimi onlarla hünərvər demokratik ziyalıların da idealı Azərbaycanı müstəqil, buxovlardan azad, məsud və xoşbəxt görmək idi. Bu gün anadan olmasının 150 illiyində xatirəsi əziz tutulan Nəriman Nərimanovun yaşadığı qısa ömründə (əlli beş ildə) vətən üçün, xalq üçün necə qəhrəmanlıqla çalışmasını minnətdarlıqla yad edirik.

Nəriman Nərimanov keçən əsrin 90-cı illərində taleyini Azərbaycanın mədəni mərkəzi Bakıya bağladığı ilk günlərdən çoxcəhətli ictimai fəaliyyətə başlamışdı. O, bütün şüurlu həyatını Azərbaycanın səadəti yolunda mübarizəyə həsr etməyə and içmişdi. Nərimanov son nəfəsinə qədər müqəddəs andına sadiq qaldı.

Nəriman Nərimanov müasirimizdir. O, öz sözü-söhbəti, əməlləri ilə bu gün də yaşayır və ümumxalq işimizə kömək edir. Nərimanovun sözü ilə əməli bir olduğuna görə başı çox bəlalar çəkdi, lakin əyilmədi. Qəlbində xalqına olan böyük məhəbbəti qeyri-bərabər mübarizələrdə ona dayaq oldu. Büllur saflığın təcəssümü Nəriman Nərimanov təkcə Zaqafqaziyada deyil, bütün Şərq ölkələrində əməkçi müsəlman xalqlarına azadlıq və istiqlaliyyət yolunu göstərdi. "Bəşəriyyətin geri qalmış hissəsinə" bacardığı qədər kömək etməyi özünə həyat məqsədi seçən Nərimanov realist və inqilabi-demokratik ədəbiyyatın yaradıcılarından biri, faciə janrının banisi, gözəl nasir, qüdrətli publisist, teatr xadimi, qayğıkeş müəllim, həkim, mətin inqilabçı, dövlət xadimi olmuşdur. Azərbaycan ictimai fikrinin bahadırı Nərimanovun odlu məşəl kimi yanan qəlbinin döyüntüləri bu gün həmişəkindən daha aydın eşidilməkdədir. Xalqın birliyi və suverenliyi, müstəqil Azərbaycanın bütün Şərqə nümunə olması onun ideallarının tacı idi. O, həqiqi beynəlmiləlçi kimi tarixən ayrılmaz tellərlə bağlı xalqların əlaqəsini qarşılıqlı, bərabərhüquqlu əməkdaşlıqda görürdü. Ona görə də birinci növbədə millətin özünü tanımasını, öz hüququnu dərk etməsini başlıca amil hesab edirdi. Nərimanova görə, dilin, məktəbin, mətbuatın və ədəbiyyatın milli məzmunu hürriyyətə bağlıdır. Onsuz heç bir millət özünü tanıyıb hüququnu qoruya bilməz.

Nərimanov məmləkət üçün işləyən hər kəsdən birinci növbədə vətənpərvərlik tələb edirdi. Onun fikrincə, "vətənin qədrini o kimsə bilər ki, vətən ilə ruhani rabitəsi olsun, vətən ilə bir yerdə ağlasın, bir yerdə gülsün". Bu baxımdan çox zaman bəxtimiz gətirmir, ona görə də başımıza olmazın müsibətlər gəlir, bəlalara düçar oluruq. Lakin təsəllimiz xalqımızın ictimai-siyasi hadisələrə fəal münasibəti, yeni təfəkkür tərzi və dirçəlişidir. Nərimanovun vəsiyyətləri bütün keçilməz maneələrə, çətinliklərə qarşı mübarizədə, birlik və suverenliyin tam bərqərar olmasında xalqımızın yoluna nur çiləyən sönməz məşələ çevrilmişdir.

"Əziz oğlum, əgər mənim həyatımı öyrənsən, yəqin edərsən ki, hər halda 1925-ci ilədək başqaları üçün yaşamışam...".

"Mənim əziz Nəcəfim! Hökmranlıq dalınca qaçma, o, adamı korlayır. Bir adama yaxşı bələd olmaq istəyirsənsə, onun bütün daxili aləmini, yaxşı, pis cəhətlərini bilmək istəyirsənsə, həmin adamı bir müddət hakimiyyət başına qoy; o, bütün ləyaqət və nöqsanlarını özü aşkar edəcəkdir. Əgər sən buna, yəni kütləni yalansız və riyasız öz ardınca aparmağa hazır deyilsənsə, ondan imtina etməyin daha yaxşıdır...

Amma kütlə səni qiymətləndirirsə, sənin rəhbərlikdə iştirakını zəruri sayaraq, sənə etibar edirsə və sən də bu etimadın müqabilində ümumi işə həqiqətən fayda gətirə biləcəyinə əminsənsə, imtina etmə. Ancaq bir şərtlə: kütlənin istəyinin məcburiyyət nəticəsi deyil, könüllü olduğunu dərk edirsənsə. Əgər xəyalında zərrə qədər şübhə olsa ki, səni, kim tərəfindən olursa-olsun, zorla seçirlər, yaxşısı budur ki, imtina et. Əks-təqdirdə sən nəinki kütlə arasında, həm də vicdanın qarşısında ləyaqətini itirərsən. Ləyaqətinə görə deyil, məcburiyyət nəticəsində hakimiyyət başında olduğunu hər dəfə dərk edəndə, sən məlum bir vicdan əzabı çəkə-çəksən, getdikcə hörmətin nəinki kütlənin, hətta öz gözündən də düşəcək...".

Nərimanov Azərbaycanın gələcək xoşbəxtliyi üçün gənc nəslin düzgün, zamanın tələbinə uyğun təlim-tədrisinə diqqət yetirməyi müəllimlərin qarşısında təxirəsalınmaz vəzifə kimi irəli sürürdü. O, müəllim kimi yeni cəmiyyətə qədəm qoyan pedaqoji məktəbin ilk məzunlarına tövsiyələrlə müraciət edir. Onlara bütün çətinliklərə dözərək gənc nəsli zəhmətə alışdırmağa, cəsur, dəyanətli, doğruçul, sədaqətli vətəndaş kimi tərbiyə etməyə çağırırdı. Nəriman Nərimanov Azərbaycanı Şərq üçün bir məktəb səviyyəsində görmək arzusunda idi. O deyirdi:

"Əziz yoldaşlar! Təzə həyata qədəminizi təbrik edirəm. Vəzifəniz hər nə qədər qayət çətin, ağır, məsuliyyətli bir vəzifədirsə də, bunu da düşünməlisiniz: insanın ruhunu ucaldan bir çox şey varsa, onun ən birincisi zəhmətdir. Mən istərdim, siz gələcək həyatınızda üç məsələyə diqqət edəsiniz:

Sizin tərbiyənizdə olan Azərbaycan balaları gərək zəhmətsevən olsunlar, yəni başqasının yox, öz zəhmətinin qüvvəti ilə ehtiyaclarını rəfedici olsunlar. Bunun üçün balalara təbiəti sevdirmək, onları təbiətin əlamətləri ilə maraqlandırmaq lazım gəlir.

Sizin tərbiyənizdən çıxan cavanlarımız gərək cəsur, cürətli və dəyanətli olsunlar. Yəni bir parça çörəkdən ötrü ikiüzlülük etməsinlər, filankəsin xoşuna gəlmək üçün "qatığa qara" deməsinlər.

Amandır, yoldaşlar! Buna yaxşı fikir veriniz. Mənsəbdən ötrü yalan söyləyən, gündə vicdanını satan ikiüzlü adamlar - bizim gələcək kommunaya üzv ola bilməzlər. Ona binaən, uşaqlarla daima əlaqədar olaraq hərəkətinizdə, sözünüzdə artıq dərəcədə ehtiyatlı olmalısınız. Çünki uşaq gördüyünü tez götürər.

Biz iddiamızdan əl çəkmirik: Azərbaycan Şərq üçün bir məktəbdir, yəni Şərq hazırkı halında qalarsa, biz ona hər cəhətdən müəllim olacağıq...

Ona binaən dilimizi lüzumsuz, qeyrisinin lisanının təsiri altında saxlamaq bütün işimizi təxirə salar. Bu səbəblərə görə dilimizi müstəqil bir şəklə salmaq üçün ən çox siz müəllimlərə ümid bağlayıb məktəbi bitirməyinizi yenə də səmimi-qəlbdən təbrik edirəm".

XX əsr Azərbaycanın ictimai-siyasi fikir tarixində Nəriman Nərimanovun xidmətləri danılmazdır. Onun doğma xalqı, vətəni uğrunda mübarizəsini, ədəbi fəaliyyətini əks etdirən monoqrafik əsərlər az yazılmamışdır. Lakin yüz ildən çox keçməsinə baxmayaraq, N.Nərimanovun ictimai-siyasi fəaliyyəti barədə subyektiv mülahizə söyləyənlər tapılır. Bunun başlıca səbəbi real tarixi hadisələr, hər hansı ictimai-siyasi xadimin fəaliyyəti tarixilik baxımından, yəni dövrü, şəraiti dərindən öyrədilmədiyinə görə baş verir. Əgər araşdırmaçı-alim xüsusi tədqiqat aparmadan bir problem barədə fikir söyləmək istəyirsə, mövcud ədəbiyyata, mötəbər sayılan elmi-monoqrafik əsərlərə müraciət edə bilər. Əks halda tarixi hadisələrə müxalif təfəkkürlə birtərəfli, subyektiv yanaşmaqla yanlış yola düşə bilər.

Azərbaycan müxalifətinin və doğma xalqına qarşı cinayət törədib xaricdə ömrünü çürüdən dönükləri təəssüf doğurur.

"Ucqarlarda inqilabımızın tarixinə dair", "V.İ.Leninə məktub", "Oğlum Nəcəfə məktub", "Qarabağ məsələsinə dair sənədlər" tarixi materialları və zəngin publisistik məqalələr müəllim, yazıçı, publisist, ictimai-siyasi xadim Nəriman Nərimanovu Azərbaycan xalqının qeyrətli, təəssübkeş, fədakar oğlu kimi səciyyələndirir. Onun vətən, xalq taleyi uğrunda təkbaşına ölüm-dirim mübarizəsi aparmasını, pərvanə kimi özünü oda atdığını sübut edir.

Burada "Qarabağın taleyi" ilə əlaqədar bir hadisəni xatırlatmaq istəyirəm: 1921-ci il iyulun 4-də RKP MK Qafqaz bürosu plenumunda Stalin, Orconikidze, Maxaradze, Nərimanov, Myasnikov, Kirov, Nazarapetyan, Oraxelaşvili və Fiqatner Qarabağ məsələsini müzakirə edirlər. Dağlıq Qarabağı Ermənistan SSR-in tərkibinə daxil etmək qərara alınır. Nəriman Nərimanov bu qərara etiraz edir, "Azərbaycan üçün Qarabağ məsələsinin zəruriliyini nəzərə alaraq onu RKP MK-nın qəti qərarına keçirilməsini" təkid edir. Bununla da kifayətlənməyib Leninə zəng vuraraq qəti etirazını bildirir.

Ertəsi gün 5 iyul 1921-ci ildə Qafqaz bürosu plenumu həmin tərkibdə toplaşaraq Qarabağ haqqında qərara yenidən baxmalı olur. Nəticədə Dağlıq Qarabağın Azərbaycan SSR-in hüdudlarında saxlanması qərara alınır (bax: Nəriman Nərimanov. "Məktublar və Qarabağ məsələsinə dair sənədlər". B., 2002, səh. 88-92).

Nəriman Nərimanov Mərkəzi Komitəyə göndərdiyi "Ucqarlarda inqilabımızın tarixinə dair" məxfi məktubunda ermənilərin Dağlıq Qarabağdan əl çəkmədiklərini ciddi tənqid edir. O, İ.V.Stalinə açıq-aşkar yazır ki: "Azərbaycanda daşnak siyasəti tam gücü ilə həyata keçirilir". "Dağlıq Qarabağ Mirzoyanın güclü təsiri altında Muxtar Vilayət elan edilmişdir. Mənim vaxtımda bu mümkün olmamışdı...", "Mirzoyan erməni daşnak müəllimlərinin köməyi ilə zəmin hazırladı və məsələni Zaqafqaziya Diyar Komitəsində keçirdi... Mənim zərrə qədər də şübhəm yoxdur ki, Serqo və Stalinin simasında AKP MK biz türklərə etibar etmir və Azərbaycanın taleyini erməni daşnaklarına tapşırır" (orada, səh. 75). Nəriman Nərimanov Dağlıq Qarabağın ermənilik və xristian təəssübkeşlər qaragüruhu tərəfindən Ermənistana birləşdirilməsinə imkan vermədi. O vaxt belə bir cəsarəti ancaq xalq, vətən yolunda böyük bir şəxsiyyət edə bilərdi.

Xatırlatdığım bu məsələ Nəriman Nərimanovun mübarizəsi və mövqeyi barədə aydın təsəvvür yaradır.

Azərbaycan xalqının böyük oğlu Nəriman Nərimanovun büllur, saf şəxsiyyətinə heç kəs kölgə sala bilməz. O, əbədiyaşardır.

Milli dəyərlərimizin hamisi Heydər Əliyev öz çıxışlarının birində demişdir:

"Şəxsiyyətləri itirmək olmaz. Bizdən ötrü Mirzə Fətəli Axundov da, Əhməd bəy Ağayev də, Məmməd Əmin Rəsulzadə də böyük şəxsiyyətlərdir. Nəriman Nərimanov da. Ancaq son zamanlar Nəriman Nərimanovdan başlayaraq Azərbaycanda bütün siyasi xadimlərin Azərbaycana düşmən olmaları barədə deyilən fikirlərlə heç cür razılaşmaq olmaz.

...Nəriman Nərimanov öz dövrünün, yaşadığı mühitin çərçivəsində böyümüş görkəmli simadır, böyük siyasi xadimdir. Amma onu da bilin ki, Nəriman Nərimanov müstəqil demokratik dövlətin xadimlərinin hamısını qoruyub saxlayan adamlardan olmuşdur... Tarixi təhrif etmək olmaz. Tarixi təhrif edənlər xalqa xəyanət edir. Onu çaşdırırlar. Buna son qoymaq lazımdır. Gələcəkdə buna yol vermək olmaz...

Nəriman Nərimanov elm, mədəniyyət xadimi kimi Azərbaycan



tarixində olan bir adamdırsa, böyük bir ədəbi irs qoyub gedibsə, belə etmək olarmı? Şübhəsiz ki, belə hallara yol verilməməlidir".

* * *

Nəriman Nərimanov şərəfli, ibrətamiz ömür yolu keçmişdir. O, bütün həyatı boyu ürəyini məşələ çevirib bəşər övladının məsud, əmin-aman, müstəqil yaşaması uğrunda mübarizə aparmışdır.

Nəriman Nərimanov Kərbəlayi Nəcəf oğlu 1870-ci il aprelin 14-də Gürcüstanda Tiflis şəhərində anadan olmuşdur. Tiflis ruhani məktəbində ibtidai təhsil almışdır (1879-1885). Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasında təhsilini davam etdirmişdir (1885-1890). Tiflis quberniyası Borçalı qəzasının Qızılhacılı kəndində pedaqoji fəaliyyətə başlamışdır (1890-1891). Bakıda Pobedonostsevin şəxsi progimnaziyasında (sonra imperator III Aleksandr adına Bakı kişi gimnaziyasında) müəllim, müfəttiş işləmişdir. İlk xalq qiraətxanası açmışdır (1894). "Nadanlıq" (1894), "Şamdan bəy" (1895), "Nadir şah" (1899) pyeslərini, "Bahadır və Sona" (1896-1908) romanını nəşr etdirmişdir. Eyni zamanda "Tərcüman", "Kaspi" qəzetlərində ilk məqalələrini dərc etdirir. Bu dövrdə N.V.Qoqolun "Müfəttiş" komediyasını doğma dilə çevirir (1892), məktəblilər üçün dərsliklər tərtib edir: "Türk Azərbaycan dilinin müxtəsər sərf nəhvi", "Müsəlmanlar üçün müəllimsiz rus dilini öyrənməkdən ötrü asan kitabça", "Müəllimsiz türk dilini öyrətməkdən ötrü ruslar üçün asan kitabça" (1891-1900). Müəllim və aktyor kimi tanınır (1891-1902). Odessa şəhərində Novorossiya İmperator Universitetinin tibb fakültəsində təhsil alır (1902-1908). Burjua-demokratik inqilabi hadisələri ilə əlaqədar universitet müvəqqəti bağlandığı zaman (1905-ci ilin payızından 1906-cı ilin sonlarınadək) Bakıda "Hümmət" təşkilatına daxil olur. "Nicat" maarif cəmiyyətində teatr və konsert tamaşaları, ədəbi dərnəklər təşkil edir. İran sosial-demokrat təşkilatının yaradıcılarından biri kimi ictimai-siyasi və publisistik fəaliyyəti ilə İran inqilabına kömək edir.

RSDFP məramnaməsini Azərbaycan dilində tərcümə edir. Qafqaz müsəlman müəllimlərinin I qurultayının təşkili və keçirilməsində ciddi çalışır (1906, 15 avqust), "Həyat", "İrşad" qəzetlərində "Nər", "Arı bəy" imzaları ilə felyeton, siyasi-publisist və ədəbi tənqidi məqalələr çap etdirir. Novorossiysk İmperator Universitetinin tibb fakültəsini bitirdikdən sonra Bakı səhərində müalicəxana açmaq istəsə də, icazə verilmir (1908). İran inqilabçılarına yaxından kömək məqsədilə Tiflisə gedib orada işə düzəlmək istəyir (1909). Təqib olunduğundan həmin il mart ayının 1-də həbs olunur (1909, sentyabr). İlk gündən burada həkimlik etməsi, "Xolera-vəba", "Çixotka-vərəm", "Aləmi-nisvan", "Tibb və İslam", "Əyyaşlıq" mövzularında mülahizələr oxuması onu xalq həkimi kimi tanıdır. "Bührani-tərəqqi", "İdel", "Prikaspiyski kray" qəzeti redaksiyaları ilə sıx əlaqə saxlayır, elmi-publisistik məqalələrlə çıxış edir. "Ümumrusiya vərəmə qarşı mübarizə cəmiyyəti" Həştərxan şöbəsinin üzvü kimi "Ağ çiçək" həmrəylik mərasiminin təşkili və keçirilməsində fəal çalışır. İnqilabçı-demokrat tatar şairi Abdulla Tukayla şəxsən tanış olur (1911). Professor İ.İ.Meçnikovu "Şurayi-islam" cəmiyyətinin ziyalıları adından təbrik edir, onun vərəmə qarşı mübarizəsində köməkliyini əsirgəmir. Həştərxan Xalq Universitetinin sədri seçilir (1912-1913). Sürgündən sonra Bakıya qayıdıb "Qara şəhər"də xəstəxana müdiri vəzifəsinə işə düzəlir. İctimai və ədəbi fəaliyyətini gücləndirir. Bədii əsərlərini yenidən nəşr etdirir. Dövri mətbuatda ədəbi-publisistik məzmunlu məqalələrlə çıxış edir. "Xalq evi" cəmiyyəti idarə heyətinin üzvü, "Qənaət" kooperativi idarə heyətinin sədri seçilir. Gizli inqilabi fəaliyyətini leqal ictimai fəaliyyətlə əlaqələndirir. Fəhlələrin Rusiya imperiyası hakimiyyətinə qarşı mübarizəyə hazırlanmasında ciddi işlər görür. "İqbal", "Bəsirət", "Açıq söz" və s. qəzetlərdə "Arı bəy", "Nər", "Doktor N.Nərimanov" imzaları ilə tibbə dair elmi-kütləvi məqalələr, ədəbi-tənqidi və ictimai-siyasi publisist əsərlərini çap etdirir (1913-1916). "Tənqid gecələri" ədəbi dərnəyi təsis edir. Bu məclisdə yeni çıxan əsərlər müzakirə olunur (1914). Bolşevik "Hümmət" təşkilatı komitəsinin sədri və RSDF (b) II Bakı komitəsinin üzvü seçilir. "Hümmət" bolşevik qəzetinin "El həyatı" jurnalının baş redaktoru olur (1917-1918). Şəhər dumasına və Müəssislər məclisinə namizəd göstərilir (1917). Bakı Xalq Komissarları Sovetinin tərkibində şəhər təsərrüfatı komissarı kimi çalışır (1918). Bakı qəza kəndli deputatları Sovetinin I qurultayının təşkilatçılarından biri kimi tanınır. Ağır xəstələndiyinə görə 1918-ci ilin iyun ayında Həştərxanda Tinaki palçıq müalicəxanasında müalicə olunur. Çox çəkmir ki, Həştərxanda ictimai-siyasi fəaliyyətini davam etdirir. Burada Həştərxan vilayətinin müsəlman işləri üzrə hərbi-siyasi komissarlığının səhiyyə şöbəsinin rəhbəri, Həştərxan quberniya maarif şöbəsinin müdiri, Zaqafqaziya müsəlmanlarının işləri üzrə komissar vəzifələrində çalışır. Moskvaya çağırılır. RSFSR Xalq Xarici İşlər Komissarlığı Yaxın Şərq şöbəsinin müdiri, həm də Xalq milli işlər komissarının müavini təyin olunur. Xalq Milli İşlər Komissarlığı Kollegiyasının üzvü kimi ona Zaqafqaziya müsəlmanlarının işləri üzrə komissar vəzifəsi həvalə edilmişdir. Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi ərəfəsində Azərbaycan İnqilab Komitəsinin, sonra isə Azərbaycan SSR XKS-nin sədri seçildi (1920, 7 aprel). Şərq xalqlarının birinci qurultayının hazırlanması və keçirilməsində fəal iştirak etmişdir (1920, sentyabr). "Şərq xalqlarının təbliğat və fəaliyyət Şurası" tərkibinə seçilmişdir. Zaqafqaziya Federasiyası İttifaq Sovetinin sədrlərindən biri olmuşdur. RK (b) XII-XIII qurultaylarında MK üzvlüyünə namizəd seçilmişdir. İtaliyada, Beynəlxalq Genuya konfransında sovet nümayəndə heyətinin tərkibində olmuşdur (1922). SSRİ MİK sədri seçilmişdir (1922, dekabr). Ölkə daxilində ən mühüm dekret, qərar və müraciətnamələrin, eləcə də xarici siyasət tədbirlərinin hazırlanmasında və həyata keçirilməsində fəal çalışmışdır. Şərqşünaslıq Elmi Cəmiyyətində və onun "Novıy Vostok" jurnalında əməkdaşlıq etmişdir.

1925-ci il martın 19-da Moskvada qəflətən ürək partlamasından vəfat etmiş, martın 23-də orada Kreml divarları qarşısında dəfn olunmuşdur. Onun vəfatı ilə ölkənin bütün dövlət idarələrində iş dayandırıldı. 23 mart matəm günü elan edildi. Hər yerdə dövlət bayraqları 5 dəqiqəliyə endirildi, toplardan yaylım atəşi açıldı.

Moskvada Şərqşünaslıq İnstitutu uzun müddət onun adını daşımışdır. Moskvada, Bakıda, Həştərxanda, Ulyanovskda, Marneulidə, SSRİ-nin digər şəhər və rayonlarında adına küçə, meydan, məktəb və s. verilmiş, bir sıra yerlərdə abidəsi ucaldılmışdır. Moskvada yaşadığı binada qranitdən barelyef portreti təsvir olunan xatirə lövhəsi, Tbilisidə və Bakıda xatirə muzeyi açılmışdır. Onun haqqında bədii və sənədli filmlər çəkilmiş, ədəbi musiqi, rəssamlıq əsərləri yaradılmışdır.

Nəriman Nərimanovun həyat salnaməsi onun ictimai-siyasi və dövlət xadimi, ədib, müəllim, həkim kimi çoxcəhətli fəaliyyəti haqqında təsəvvür yaradır. Onun titanik zəhmətinin istiqaməti, idealı Şərq xalqlarını əsarətdən xilas etmək, istiqlal yoluna, xoşbəxtliyə qovuşdurmaq olmuşdur.

# “Azərsu” ASC daxili vəsaiti hesabına yüksək təzyiqli şlanq başlıqlarının satın alınması ilə əlaqədar

## *açıq tender elan edir*

“Azərsu” ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsilə yüksək təzyiqli şlanq başlıqlarının satın alınması

Malgöndərənlər (podratçılar) **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3 (üç) il üzrə oxşar mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş ən azı 3(üç) müqavilə) və ən aşağı qiymət təklifi

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 300 manatdır.**
**Təşkilat: “Azərsu” ASC**
**VÖEN: 9900001751**
**Bank: “Kapital Bank”ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **07 may 2020-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə **18 may 2020-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **19 may 2020-ci il saat 18:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

# Tarix İnstitutunun magistrantları üçün dərslər distant formada tədris olunur

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik Ramiz Mehdiyevin “AMEA-nın magistrantları üçün distant (məsafədən) tədrisin təşkil edilməsi haqqında” sərəncamına əsasən, Tarix İnstitutunun I kurs magistrantlarına martın 29-dan başlayaraq dərslər distant formada tədris olunur.

Tarix İnstitutundan AZƏRTAC-a verilən məlumata görə, elmi müəssisədə 5 magistrant distant təhsil alır.

Tarixçi alimlər Allahverdi Əlimirzəyev “Mixi yazılar” və “Tarix elminin müasir problemləri”, Ellada Bəkirova “Azərbaycan Atropatena və Albaniya dövlətləri”, Ramin Əlizadə “Tarixin tədrisi metodologiyası və metodikası”, Tofiq Nəcəfli “Azərbaycan dövlətlərinin beynəlxalq əlaqələri (XV-XVII əsrlər)”, Fərəh Hüseyn “Osmanlı xətləri” və “Əski əlifba”, Hacı Həsənov və Vidadi Umudlu “Abbasqulu Ağa Bakıxanov və Mirzə Kazımbəyin tarixi görüşləri”, “XIX əsrdə Azərbaycanda tarixi fikrin inkişafı”, Cəbi Bəhramov “Azərbaycan tarixində neft amili (XIX-XXI əsrin əvvəlləri)” və Vaqif Abışov “XX əsrdə erməni daşnaklarının Azərbaycanda türk-müsəlman əhaliyə qarşı soyqırımları” fənlərini tədris edirlər.

Distant təhsilin gedişatı barədə AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil idarəsinin Magistratura şöbəsinə mütəmadi olaraq hesabatlar təqdim olunur.

# Yas mərasiminə getmək adı ilə 8103 qısa nömrəsinə yalandan müraciət edən 56 nəfər cəzalandırılıb

“Xüsusi Karantin Qaydalarının Tətbiqi Zamanı İcazələrin Alınması və Monitorinqi Sistemi” olan 8103 qısa nömrəsinə yas mərasimində iştirak etmək adı ilə həqiqətə uyğun olmayan və ya yaxın qohumluq statusu daşımayanların yas mərasimlərində iştirak etmək üçün qanunsuz yerə icazələr alaraq epidemiya əleyhinə rejimin tələblərini pozan şəxslər daxili işlər orqanlarının əməkdaşları tərəfindən qısa zamanda müəyyən ediliblər.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu istiqamətdə aparılan məqsədyönlü tədbirlər nəticəsində təkcə ötən sutka ərazində paytaxt Bakı və respublikanın ayrı-ayrı rayonlarında bu üsuldan istifadə edərək karantin qaydalarını pozan ümumilikdə 56 nəfərin şəxsiyyəti müəyyən edilib və onlar polis idarə, şöbə və bölmələrinə gətiriliblər. Həmin şəxslər barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsi ilə tədbirlər görülüb və hər biri 100 manat məbləğində cərimə ediliblər.

Qeyd edək ki, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 19-cu maddəsinə əsasən yaxın qohumlar dedikdə nənə-babalar, valideynlər, övladlığa götürənlər, doğma və ögey bacı qardaşlar, ər-arvad, uşaqlar və nəvələr nəzərdə tutulur.

Nazirlik bir daha vətəndaşların diqqətinə çatdırır ki, 8103 nömrəsinə edilən bütün müraciətlər ciddi araşdırılır. Buna görə də vətəndaşlardan bu xidmətdən sui-istifadə hallarına yol verməmələri tələb olunur. Əks halda, bu cür davranış karantin rejimi tələblərinin pozulması kimi qiymətləndiriləcək və həmin şəxs barəsində ciddi cəza tədbirləri görüləcək.

# Tətbiq edilən xüsusi karantin rejimini pozaraq cərimələnən sürücülərin sayı açıqlanıb

Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi ölkə ərazisində tətbiq edilmiş xüsusi karantin rejimi ilə əlaqədar aprelin 12-si saat 00:00-dan aprelin 13-ü saat 00:00-dək olan müddət ərzində DYP əməkdaşları tərəfindən görülmüş işlər barədə məlumat yayıb.

İdarədən AZƏRTAC-a bildiriblər ki, koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejiminin pozulmasına görə aprelin 12-si saat 00:00-dan aprelin 13-ü saat 00:00-dək olan müddət ərzində respublikanın avtomobil yollarında nəqliyyat vasitələri ilə hərəkətdə olan 1503 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilib.

Ümumilikdə, aprelin 1-dən bu günədək respublikanın, o cümlədən paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə 16483 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb olunub.

## BİLDİRİŞ

Dövlət Radiotezliklər İdarəsi tərəfindən 04 mart 2020-ci il tarixdə “Azərbaycan” qəzeti və 03 mart 2020-ci il tarixdə etender.gov.az saytında yerləşdirilmiş elana əsasən, 10 aprel 2020-ci il saat 15:00-da nəqliyyat vasitələrinə illik texniki servis xidmətlərinin, sürtkü materiallarının, şinlərin, akkumulyatorların və ehtiyat hissələrinin satın alınması məqsədi ilə keçirilməsi nəzərdə tutulan açıq tender müsabiqəsi yetərli sayda tender təklifinin olmaması səbəbindən ləğv edilmişdir.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi internet səhifəsinin təkmilləşdirilməsi xidmətinin satın alması ilə bağlı kotirovka sorğusuna dair Satınalmalar komissiyasının 19 fevral 2020-ci il tarixli qərarına əsasən “GT SOLYUŞNZ” MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

# Beynəlxalq aləm

## ÜST-ün rəhbəri Türk Şurası dövlətlərini dünyaya nümunə göstərdi



Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesus yeni tip koronavirus pandemiyasından zərər çəkən ölkələrlə həmrəylik nümayiş etdirdiyinə görə Türkiyəyə minnətdarlığını bildirmişdir. O qeyd etmişdir ki, “Türkiyənin göstərdiyi həmrəylik bütün dünyaya nümunə olmalıdır”.

ÜST-ün rəhbəri xatırlatmışdır ki, Türk Şurasının aprelin 10-da videokonfrans formatında keçirilmiş sammitinə qatılmış bütün liderlər pandemiya ilə mübarizədə köməyə ehtiyac duyan ölkələrə dəstək verilməsinin vacibliyi ilə razılaşdılar. Gebreyesus ümidvar olduğunu bildirmişdir ki, dünyanın bütün ölkələri Türk Şurası dövlətlərindən nümunə götürərək həmrəylik prinsipinə əməl edəcək və gözə görünməyən təhlükəli düşmənlə birlikdə mübarizə aparacaq.

Qeyd edək ki, Türkiyə koronavirusla mübarizə aparmaq üçün dünyanın bir sıra ölkələrini, o cümlədən İtaliya, İspaniya, Böyük Britaniya, Serbiya və Bosniyanı tibbi ləvazimatla təchiz etmişdir.

## Avropa Komissiyası qocaların ilin sonunadək təcrid olunmasını təklif edir



“Koronavirus peyvəndi tapılmasa, Avropa İttifaqı ölkələrində yaşlı adamların ən azı ilin sonunadək təcrid olunması yaxşı olar”. Bu bəyanatla Avropa Komissiyasının sədri Ursula fon der Lyayen çıxış etmişdir.

Fon der Lyayen əmindir ki, yaşlıların təmaslarını mümkün qədər məhdudlaşdırmaq lazımdır: “Təcridolunma sarsıdıcıdır, amma bu, olum-ölüm məsələsidir. Ona görə də intizamlı və səbirli olmalıyıq”.

Avropa Komissiyasının sədri məhdudiyyətlərin hansı yaş qrupundan olan adamlar üçün nəzərdə tutduğunu dəqiqləşdirməmişdir. Fon der Lyayenin özü 61 yaşdadır.

## Boris Conson xəstəxanadan çıxdı



Yeni tip koronavirusun doğurduğu sətəlcəmə yoluxmuş Böyük Britaniyanın Baş Naziri Boris Conson xəstəxanadan çıxmışdır. Bu barədə hökumətin nümayəndəsi məlumat vermişdir.

Consona dərhal işə başlamaq tövsiyə edilməmişdir. O, Londonun yaxınlığındakı “Çekers” iqamətgahında qalıb tamamilə sağalmasını gözləyəcək. Baş Nazir evə buraxılmazdan əvvəl bəyanat verərək müalicə aldığı “Müqəddəs Tomas” xəstəxanasının həkimlərinə minnətdarlığını bildirmiş, həyatı üçün onlara borclu olduğunu qeyd etmişdir.

55 yaşlı Baş Nazir ötən ayın axırlarında koronavirus testindən keçmiş və nəticə müsbət olmuşdu. Həftəyarım ərzində xəstəliyin əlamətləri itmədiyindən o, aprelin 5-də xəstəxanaya yerləşdirilmişdi. Ertəsi gün Consonun vəziyyəti o qədər pisləşmişdi ki, xəstə reanimasiya şöbəsinə köçürülmüşdü. Baş Nazir orada oksigen dəstəyi almış, amma süni tənəffüs aparatına qoşulmamışdı. O, aprelin 9-da adi palataya köçürülmüşdü.

## Somalinin paytaxtında komendant saatı tətbiq olunacaq



Somali federal hökuməti yeni tip koronavirus pandemiyası ilə əlaqədar paytaxt Moqadişoda komendant saatı tətbiq etmək qərarına gəlmişdir. Bu barədə ölkənin polis orqanları məlumat vermişdir.

Komendant saatı sabahdan etibarən 20:00-dan 05:00-dək qüvvədə olacaq. Eyni zamanda insanların hərəkəti məhdudlaşdırılacaq, ərzaq mağazalarından başqa bütün mağazalar bağlanacaq. Aptek və tibb mərkəzləri də açıq olacaq.

Ölkədə koronavirusa indiyədək 25 nəfər yoluxmuşdur.

## Serbiyada narkomafiya bosu koronavirusdan öldü



İri narkomafiya bosu, “Serb Al Kaponesi” adlandırılan Draqoslav Kosmayats koronavirusdan vəfat etmişdir. Bu barədə yerli KİV xəbər verir.

67 yaşlı narkomafioz ötən ayın axırlarında ağır vəziyyətdə xəstəxanaya yerləşdirilmişdi.Kosmayats Serbiya və Qərbi Avropada çoxsaylı əmlak və restoranlar sahibi idi. Prezident Aleksandr Vuçiç onu “ölkənin ən böyük narkotik alverçisi” elan etmişdir. Narkomafioz 2014-cü ildə vergidən yayınmağa və rüşvətxorluğa görə həbs olunmuşdu. Xatırladaq ki, Serbiya liderinin oğlu Daniil də koronavirusa yoluxmuşdur.

## Missisipidə 6 nəfər tornadonun qurbanı oldu



ABŞ-ın Missisipi ştatında tornado azı 6 nəfərin həyatına son qoymuşdur. Bu barədə yerli Fövqəladə Hallar Agentliyi məlumat vermişdir.

Məlumatda deyilir ki, bir nəfər Uoltholl dairəsində, iki nəfər Lourens dairəsində, üç nəfər Cefferson Devis dairəsində həlak olmuşdur. Ölənlərin sayının arta biləcəyi istisna olunmur. “NBC News” telekanalının xəbərinə görə, tornado ABŞ-ın digər cənub ştatlarından keçərək Luiziana və Texasın bəzi rayonlarında yaşayış binalarına və digər tikililərə ziyan vurmuşdur. Missisipi və Luizianada 45 min nəfərdən çox adam işıqsız qalmışdır.

# Dövlət Sərhəd Xidməti Mətbuat Mərkəzinin məlumatı





Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri davam etdirilir.

Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının əməkdaşları tərəfindən son bir həftə ərzində 2 halda 10 kq 490 qr narkotik vasitənin dövlət sərhədindən keçirilməsinin qarşısı alınmışdır.

Daxil olmuş əməliyyat məlumatlarına əsasən, “Göytəpə” Sərhəd Dəstəsinin xidməti ərazisində 2 kq heroin və 1 kq 950 qr metamfetamin, “Lənkəran” Sərhəd Dəstəsinin xidməti ərazisində 4 kq 730 qr heroin və 1 kq 770 qr metamfetamin aşkar edilərək götürülmüşdür. Faktlar üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin kollektivi Məhkəmə Aparatının əməkdaşı Günar Xəlilzadəyə qardaşı
**ANAR XƏLİLZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

“Azərenerji” ASC-nin rəhbərliyi və kollektivi İlham Ağasıyevə anası
**RƏHİLƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin Əməyin təşkili və iqtisadiyyatı şöbəsinin rəisi Xatiban Əmirovaya atası
**BALASAN MÜƏLLİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Əsgər Ələkbərova anası
**RƏNA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi, kollektivi və üzvləri Auditorlar Palatası Aparatının rəhbəri Qəşəm Bayramova anası
**PONPUL MUSTAFA QIZININ**
Gürcüstan Respublikasının Bolnisi rayonu Saraclı kəndində vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 7323
Sifariş 931
Qiyməti 40 qəpik